AZƏRBAYCAN RESPUBLİKASININ

ALİ MƏHKƏMƏSİ

# M Ü N D Ə R İ C A T

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciəti.............................................................. 3
Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu........................... 7
Ali Məhkəmədə 2019-cu ildə baxılmış işlər haqqında ümumi məlumat.................................. 10
Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda icraat......................................... 13
Ali Məhkəmənin kollegiyalarında 2019-cu ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat: ................................................................................................... 14
Ali Məhkəmənin Mülki kollegiyası.......................................................................................... 14
Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası.......................................................................... 18
Ali Məhkəmənin Cinayət kollegiyası....................................................................................... 27
Ali Məhkəmənin Hərbi kollegiyası.......................................................................................... 31
Ali Məhkəmə Kollegiyalarının hakimləri tərəfindən 2019-cu ildə görülmüş işlər.................... 34
Ali Məhkəmənin Plenumu....................................................................................................... 38
Ali Məhkəmənin Aparatı və İşlər idarəsi.................................................................................. 41
Ali Məhkəmənin 2019-cu ildə beynəlxalq əlaqələri................................................................. 51
Ali Məhkəmənin İnternet səhifəsi............................................................................................ 61
Ali Məhkəmənin bülleteni........................................................................................................ 63
Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi.................................................................. 64
Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası……………………………….................................................................... 64

# Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə
# M Ü R A C İ Ə T İ

***Hörmətli xanımlar və cənablar!***




Ənənəvi görüşümüzdə Sizi salamlayıram. Ötən ilin yekunu ilə bağlı hər il keçirdiyimiz görüşdə Sizinlə qarşılıqlı fikir mübadiləsi səmərəli olur və bu gün də belə olacağına əminliyimi bildirmək istəyirəm.

2019-cu il bir sıra əlamətdar hadisələrlə yadda qalmışdır. Ən önəmlisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanı olmuşdur. Fərman ölkə başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürü olmaqla, həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsidir. Əslində, bu Fərman məhkəmə-hüquq sistemində islahatların dərinləşməsini, yeni mərhələdə müasir tələblərə uyğun və sistemli davam etdirilməsini şərtləndirməklə məhkəmə sisteminin gələcək inkişafı üçün strateji prioritetləri müəyyən edən "yol xəritəsi"dir.

Əsas məsələlərdən biri də ötən il 3 fevral 2019-cu il tarixli Fərmanın icrası ilə bağlı qanunvericilikdə edilmiş dəyişikliklərə əsasən inzibati-iqtisadi məhkəmələrin, habelə Apellyasiya Məhkəmələrində və Ali Məhkəmədə inzibati-iqtisadi və hərbi kollegiyaların ləğv edilərək, regional inzibati və kommersiya məhkəmələrinin yaradılması, o cümlədən yuxarı instansiya məhkəmələrində müvafiq kollegiyaların təsis edilməsi olmuşdur. Xüsusilə vurğulanmalıdır ki, ötən ilin sonunda yeni yaradılmış inzibati və kommersiya məhkəmələrinə ölkə başçısının Sərəncamı ilə yüksək bilik və təcrübəyə malik hakimlərin təyinatları həyata keçirilmişdir ki, bu da öz növbəsində istinad edilən sahədə ədalət mühakiməsinin keyfiyyətinin artırılmasına öz ciddi töhvəsini vermişdir.

Bundan başqa, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin

humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı keyfiyyətcə yeni mərhələdə məhkəmə-hüquq islahatlarının səmərəliliyinin daha da yüksəldilməsinə xidmət edir. Möhtərəm Prezidentimizin humanizmin təntənəsinə xidmət edən bu Sərəncamı ulu öndər Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi ədliyyə və məhkəmə-hüquq islahatlarının keyfiyyətcə yeni mərhələdə uğurlu davamı kimi cəmiyyətdə yüksək qiymətləndirilir.

Sərəncamın preambula hissəsində qeyd olunduğu kimi, "...Dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlər penitensiar xidmətin, habelə bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulmasını və səmərəli idarəetmənin təşkilini zəruri edir".

Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına, o cümlədən, Mülki, Cinayət, Mülki-Prosessual, Cinayət-Prosessual və sair Məcəllələrə edilən dəyişikliklər möhtərəm cənab prezidentimizin adı çəkilən Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi mərhələlərindən biridir.

Bildiyiniz kimi, Azərbaycan Respublikası "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulduğundan Avropa Məhkəməsinin presedent hüququ bizim hüquq sistemimiz üçün mühüm əhəmiyyət kəsb edir. Məhkəmələrin iş fəaliyyətinə olan tələblər daha da yüksəlmişdir. Bu baxımdan ədalət mühakiməsini həyata keçirən hakimlərin beynəlxalq hüquq normalarını, insan hüquqları sahəsində beynəlxalq standartları, onların tətbiqi təcrübəsini mənimsəmələri önəmli olduğundan Ali Məhkəmədə hər həftə keçirilən seminarlarda beynəlxalq hüquqi aktlar, xüsusən də "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəaları, Avropa Məhkəməsinin presedent hüququ öyrənilir. Hakimlərin və dəvət olunmuş beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə "dəyirmi masa"lar keçirilr, vaxtaşırı qarşılıqlı təcrübə mübadiləsi məqsədilə Avropa dövlətlərinə səfərlər təşkil edilir.

Ötən il ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məhkəmə sistemi ilə bağlı digər sərəncamlarının icrası və Ali Məhkəmənin fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində də görülən işlər davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Elektron məhkəmə informasiya sistemi"nin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli Sərəncamının icrası və elektron məhkəməyə keçidin təmin olunması məqsədilə Ali Məhkəmədə yeni elektron sənəd dövriyyəsinin, kassasiya müraciətlərinin və işlərin elektron qaydada bölüşdürülməsi sistemi yenilənmişdir. "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi məhkəmə ilə tərəflərin əlaqələrinin asanlaşdırılmasını, sənədlərin işlənməsinin sürətləndirilməsini və işlərin prosessual qanunvericiliyin tələblərinə

uyğun qaydada və müddətlərdə baxılmasını təmin edir. Ali Məhkəməyə daxil olan kassasiya şikayətlərinin, ərizə, şikayət və digər sənədlərin elektron qeydiyyatı aparılır, məhkəmə prosesləri audio, video və digər yazan texniki vasitələrdən istifadə etməklə qeydə alınır, məhkəmə protokolları və qərarlar Ali Məhkəmənin Elektron Arxivinə inteqrasiya edilir. Həmçinin, “Elektron hökumət” portalı vasitəsi ilə məhkəmə fəaliyyəti ilə bağlı bütün dövlət rüsumları elektron qaydada ödənilir.

İnternet səhifələrində bizim daim yeniləşdirilən saytımız yerləşdirilmişdir. Həmin saytda Ali Məhkəmənin Plenumu və müvafiq kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar və digər məlumatlar yayılır. Hər bir vətəndaş və mediya əməkdaşı Ali Məhkəmənin fəaliyyəti haqqında ətraflı məlumat əldə edə bilər

Əvvəlki illərlə müqayisədə 2019-cu il ərzində vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin səviyyəsi daha da yüksəlmişdir.

2019-cu ildə Ali Məhkəmənin məhkəmə kollegiyalarının və Plenumunun icraatında cəmi **16.692** iş, o cümlədən:

- Mülki kollegiyada **9.403** iş,

-İnzibati-İqtisadi kollegiyada inzibati mübahisələrə dair-**3.960** iş, iqtisadi mübahisələrə dair – **589** iş,

- Cinayət kollegiyasında **2.601** iş,
- Hərbi kollegiyada **115** iş,
- Plenumda isə **24** iş olmuşdur.

Müqayisəli təhlilldən görünür ki, Ali Məhkəmədə 2019-cu ildə baxılmış işlərin sayı 2018-ci ilə nisbətən **4,4%, yəni 587** iş artmışdır.

Aparılmış təhlillə müəyyən edilmişdir ki, 2018-ci il ilə müqayisədə 2019-cu ildə Ali Məhkəmədə baxılan işlərin sayı:

- Mülki kollegiyada **475 iş (5,6 %) azalmış;**
- İnzibati İqtisadi kollegiyada inzibati mübahisələrə dair **885 iş (38,9 %) artmış,** iqtisadi mübahisələrə dair **35 iş (7,5 %) artmış;**
- Cinayət kollegiyasında **152 iş (8%) artmış;**
- Hərbi kollegiyada **11 iş ( 10,8%) azalmış**
- Plenumda isə **1 iş ( 5%) artmışdır.**

Hesabat ilinin nəticələri göstərir ki, respublika məhkəmələri tərəfindən həm işlərin baxılmasında, həm də qərarların qəbul edilməsində müsbət dəyişikliklərin olmasına baxmayaraq, bəzi hallarda bir sıra qanun pozuntularına və nöqsanlara da yol verilmişdir ki, bu da aşağı instansiya məhkəmələrinin qərarlarının kassasiya qaydasında ləğv edilməsinə və ya dəyişdirilməsinə səbəb olmuşdur.

Məlumat üçün bildirirəm ki, son illər 40-dək məhkəmə binası müasir standartlara uyğun layihələndirilmiş, qısa müddətdə 14 məhkəmə üçün, o cümlədən 2019-cu ildə Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi üçün yeni bina inşa edilərək istifadəyə verilmiş, hazırda digər məhkəmələr üçün də inşa olunmaqdadır. Bu binalarda vətəndaşların rahatlığı məqsədilə hər cür imkanların yaradılması bir çox problemləri, habelə korrupsiya şəraitini aradan qaldırır.

Ədalət mühakiməsini həyata keçirən hakimlər qanunlara dürüst əməl etməli, məhkəmələrin cəmiyyətdə nüfuzunun artmasına, məhkəmələrə inamın yüksəlməsinə nail olmalıdırlar.

Məhkəmə proseslərinin şəffaf, qərarlarının ədalətli olması əsas şərtdir. Ədalətli qərarlar insanlarda dövlətə inamı artırır.

***Hörmətli jurnalistlər!***

Sizi Ali Məhkəmə ilə daha sıx əməkdaşlığa dəvət edirəm. Qanunun aliliyinin təmin olunması, insan hüquq və azadlıqlarının müdafiəsi, sosial ədalətin bərpası naminə bu, çox vacibdir. Sizə sağlam həyat və yaradıcılıq uğurları arzulayıram.

**Hörmətlə,**

**Ramiz Rzayev**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri**

## Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə mülki, inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə Azərbaycan Respublikasının Bakı şəhərində təşkil edilmiş və onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Ali Məhkəmə 2019-cu ildə Ali Məhkəmənin sədrindən, məhkəmə kollegiyalarının sədrlərindən və hakimlərindən - cəmi 40 hakimdən ibarət tərkibdə fəalliyyət göstərmişdir.

Ali Məhkəmə Plenumdan və dörd məhkəmə kollegiyalarından ibarətdir.

“Məhkəmələr və Hakimlər haqqında” Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununa əsasən Ali Məhkəmənin mülki işlər üzrə, iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və hərbi məhkəmələrin işləri üzrə kollegiyalarının” adları dəyişdirilərək müvafiq surətdə “mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya” adlandırılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun “Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyasının tərkibinin təşkili barədə” 11 oktyabr 2013-cü il tarixli qərarına əsasən məhkəmə kollegiyalarında işlərə baxılması üçün hər biri üç hakimdən ibarət olan məhkəmə tərkibləri, o cümlədən:

**Mülki kollegiya** - kollegiya sədrindən və on yeddi hakimdən ibarət altı məhkəmə tərkibi,

**İnzibati-iqtisadi kollegiya** - kollegiya sədrindən və doqquz hakimdən ibarət üç məhkəmə tərkibi,

**Cinayət kollegiyası** - kollegiya sədrindən və altı hakimdən ibarət iki məhkəmə tərkibi,

**Hərbi kollegiya** - kollegiya sədrindən və üç hakimdən ibarət bir məhkəmə tərkibi müəyyən edilmişdir.

Ali Məhkəmənin hakimlərinin sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir və onlar bu vəzifəyə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin edilir.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının 09 iyul 2019-cu il tarixli Qanunu ilə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunun 62 və 78-ci maddələrinə dəyişikliklər edilərək Ali Məhkəmədə və apellyasiya məhkəmələrində Mülki Kollegiya, Kommersiya Kollegiyası, İnzibati Kollegiya və Cinayət Kollegiyası təşkil edilmiş və həmin dəşiyikliklər 01.01.2020-ci il tarixdən qüvvəyə minmişdir.

Ali Məhkəmənin Plenumuna onun bütün hakimləri daxildir.

Ali Məhkəmənin Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Plenum səlahiyyətli sayılır.

Plenum baxılan məsələlər üzrə qərar qəbul edir.

Ali Məhkəmənin Plenumunun qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul edilir. Plenumun üzvləri məhkəmə işləri üzrə səsvermədə bitərəf qala bilməzlər.

Məhkumun vəziyyətini ağırlaşdıran əsaslara görə məhkəmə qərarları, bəraət hökmü, bəraətverici əsaslarla cinayət işinin icraatına xitam verilməsi haqqında məhkəmə qərarları səsvermədə iştirak edən Plenum üzvlərinin üçdə iki səs çoxluğu ilə ləğv edilə bilər.

Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir.

# Azərbaycan Respublikasının Ali Məhkəməsi



## Ali Məhkəmədə 2019-cu ildə baxılan işlər haqqında ümumi

## M Ə L U M A T

Azərbaycan Respublikası Ədliyyə Nazirliyindən daxil olmuş məhkəmə statistikasına dair məlumatlardan görünür ki, Respublikanın **birinci instansiya (ümumi və inzibati-iqtisadi) məhkəmələri tərəfindən 2019-cu ildə 190.919** işə, o cümlədən **170.526 mülki** işlərə, **4.863 iqtisadi** mübahisələrə, **15.530 inzibati** mübahisələrə dair işlərə baxılmışdır.

2018-cı ildə isə **224.584 mülki, 5.029 iqtisadi və 17.307 inzibati** mübahisələrə - cəmi **246.920** mülki işlərə və inzibati-iqtisadi mübahisələrə dair işlərə baxılmışdır.

Müqayisəli təhlildən görünür ki, 2018-ci ilə nisbətən 2019-cu ildə qeyd edilən mübahisələrə dair baxılan işlərin ümumi sayı **22,7% (56.001 iş) azalmış,** o cümlədən **mülki işlərin sayı 24,07 % (54.058 iş), inzibati işlərin sayı 10,3 % (1.777 iş) azalmış, iqtisadi işlərin sayı 3,3 % (166 iş) artmışdır.**

Məlumatın əhatə etdiyi dövrdə, Respublikanın birinci instansiya (ümumi və inzibati-iqtisadi) məhkəmələri tərəfindən qətnamə və qərar (qərardad) çıxarılmaqla cəmi **194.835** işə baxılmışdır. Birinci instansiya məhkəmələrində baxılmış yekun məhkəmə qərarlarından **33.288** apellyasiya şikayəti verilmişdir ki, bu da birinci instansiya (ümumi və inzibati-iqtisadi) məhkəmələrində baxılmış işlərin cəmi **17 faizini** təşkil edir.

Qeyd olunan müddətdə respublikanın apellyasiya məhkəmələrində baxılmış **33.288** mülki və inzibati-iqtisadi işlər üzrə qəbul edilmiş qətnamə və qərarlarından (qərardadlarından) verilmiş **11.202** kassasiya şikayətinə Ali Məhkəmənin müvafiq kollegiyalarında baxılmışdır ki, bu da apellyasiya qaydasında baxılmış mülki və inzibati-iqtisadi işlərin **33,7 faizini** təşkil edir.

Respublikanın birinci instansiya (ümumi və hərbi) məhkəmələri tərəfindən 2019-cu ildə baxılmış cinayət işləri üzrə **15.164 nəfər** barəsində **13.115 cinayət işinə** baxılmış, onlardan **10.730** iş üzrə **12.945 nəfər** barəsində **ittiham, 137 iş** üzrə **171 nəfər barəsində bəraət hökmü çıxarılmış, 1.768 iş** üzrə **1.819 nəfər** barəsinldə **işin icraatına xitam verilmiş, 29 iş üzrə 29 nəfər barəsində tibbi xarakterli qərar çıxarılmışdır.** Qeyd edilən **13.115 işdən 12.089 iş ümumi, 1.026 işə hərbi məhkəmələr** tərəfindən baxılmışdır.




Respublikanın birinci instansiya (ümumi və hərbi) məhkəmələri tərəfindən 2018-ci ildə baxılmış cinayət işləri üzrə **14.931 nəfər** barəsində **12.539 cinayət işinə** baxılmış, onlardan **10.172** iş üzrə **12.433 nəfər** barəsində **ittiham, 89 iş** üzrə **106 nəfər barəsində bəraət hökmü çıxarılmış, 1.724 iş** üzrə **1.842 nəfər** barəsinldə **işin icraatına xitam verilmiş, 37 iş üzrə 39 nəfər barəsində tibbi xarakterli qərar çıxarılmışdır.** Qeyd edilən **12.539 işlərdən 11.421 iş ümumi, 1.118 işə hərbi məhkəmələr** tərəfindən baxılmışdır.

Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2019-cu ildə ümumi məhkum edilənlərin sayı 2018-ci ilə nisbətən **233 nəfər (1,6%)** artmış, bəraət alan şəxslərin sayı isə **66 nəfər (38 %) artmışdır.**

Qeyd olunan müddətdə Respublikanın birinci instansiya (ümumi və hərbi) məhkəmələri tərəfindən məhkum edilmiş **4.919 nəfər barəsində** verilmiş apellyasiya şikayəti və protesti müvafiq apellyasiya məhkəmələri tərəfindən baxılmışdır ki, bu da respublikanın ümumi və hərbi məhkəmələri tərəfindən baxılan cinayət işləri üzrə məhkum edilənlərin cəmi **38%** təşkil edir.

Məlumatın əhatə etdiyi dövrdə apellyasiya məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə **4.919 nəfər** haqqında çıxarılmış hökm və qərarlardan **2435 nəfər** barəsində işə Ali Məhkəmədə kassasiya şikayəti və protesti əsasında baxılmışdır ki, bu da respublikanın apellyasiya məhkəmələrində 2019-cu ildə baxılmış cinayət işləri üzrə məhkum edilənlərin cəmi **49,5 %-ni** təşkil edir.

Göründüyü kimi, 2019-ci ildə respublikanın birinci instansiya (ümumi və hərbi) məhkəmələri tərəfindən baxılmış cinayət işləri üzrə məhkum olunmuş şəxslər barəsindəki hökmlərin **38 faizinin** qanuniliyi apellyasiya qaydasında, apellyasiya məhkəmələrində cinayət mühakimə icraatı qaydasında, apel1yasiya məhkəmələrində cinayət mühakimə

icraatında baxılmış işlər üzrə çıxarılmış hökm və qərarların **49,5 faizinin** qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır

2019-cu ildə Ali Məhkəmənin məhkəmə kollegiyalarının və Plenumunun icraatında **16.692** iş, o cümlədən:

- Mülki kollegiyada **9.403** iş;
-İnzibati-İqtisadi kollegiyada inzibati mübahisələrə dair **3.960** iş, iqtisadi mübahisələrə dair **589** iş;
- Cinayət kollegiyasında **2.601** iş;
- Hərbi kollegiyada **115** iş;
- Plenumda isə **24** iş olmuşdur.




2019-cu ildə Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda **13.804 (82,7%) işə,** o cümlədən

- Mülki kollegiyada **7.985** işə,
- İnzibati İqtisadi kollegiyada inzibati mübahisələrə **3.162** işə, **i**qtisadi mübahisələrə dair **500** işə,
- Cinayət kollegiyasında **2.045** işə,
-Hərbi kollegiyada **91** işə,
- Plenumda isə **21** işə baxılmışdır.

Ali Məhkəmədə 2018-ci il ilə nisbətən 2019-cu ildə baxılmış işlərin sayı **587** iş, **yəni 4,4%%** artmışdır

Aparılmış təhlildən görünür ki, 2018-ci il ilə müqayisədə 2019-cu ildə Ali Məhkəmədə baxılan işlərin sayı:

-Mülki kollegiyada **475 iş (5,6%) azalmış;**
- İnzibati-İqtisadi kollegiyada inzibati mübahisələrə dair **885 iş (38,9%),** iqtisadi mübahisələrə dair **35 iş (7,5%) artmış;**
-Cinayət kollegiyasında **152 iş (8%) artmış;**
-Hərbi kollegiyada **11 iş (10,8%) azalmış;**
-Plenumda isə **1 iş (5%) artmışdır.**

## Ali Məhkəmənin kollegiyalarında və Plenumunda icraat

Ali Məhkəmənin məhkəmə kollegiyalarında ədalət mühakiməsi işlərə (materiallara) qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hədlərdə kassasiya qaydasında baxılmaqla həyata keçirilir.

**Ali Məhkəmənin Mülki və İnzibati-İqtisadi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin mülki və inzibati-iqtisadi kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki və inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə qətnamə və qərardadlarından Ali Məhkəmə sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Cinayət və Hərbi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin cinayət və hərbi kollegiyalarının çıxardıqları hökm və qərarlarından verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmə sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş Prokurorunun protesti və ya müdafiə tərəfinin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.

# Ali Məhkəmənin kollegiyalarında 2019-cu ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat:

## 1. Ali Məhkəmənin Mülki kollegiyası

Ali Məhkəmənin Mülki kollegiyasında (bundan sonra «MK») apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərarlarından (qərardadlarından) verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2019-cu ildə MK-nın icraatına 9.403 iş daxil olmuşdur ki, bu da 2018-ci ildə icraatda olmuş 9.707 mülki işdən 304 iş, yəni 3,1 % azdır.

Hesabat dövründə MK-nın icraatında olan 9.403 mülki işdən 7.985 (84,9%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 137 (1,5%) iş üzrə kassasiya şikayəti geri qaytarılmış, 30 (0,3%) iş üzrə kassasiya şikayətindən imtina edilmiş, 1.251 (13,3%) iş isə 2020-cu ilə qalıq keçirilmişdir.

MK-da 2018-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla 8.460 mülki işə baxılmışdırsa, 2019-cu ildə isə həmin işlərin sayı 475 (5,6%) azalaraq 7.985 mülki iş təşkil etmişdir.

2019-cu ildə MK-nın icraatında baxılan işlərin təhlili ilə müəyyən edilmişdir ki, yekun məhkəmə qərarı çıxarılmaqla baxılan 7.985 mülki işlərdən:

- 995 (12,5%) iş ailə münasibətləri üzrə mübahisələrə dair;
- 284 (3,6%) iş əmək münasibətləri üzrə mübahisələrə dair;
- 822 (10,3%) iş mənzil mübahisələrinə dair;
- 216 (2,7%) iş mülkiyyət hüququ ilə əlaqadar mübahisələrə dair;
- 299 (3,7%) iş torpaq mübahisələrinə dair;
- 536 (6,7%) iş borc müqaviləsi üzrə mübahisələrə dair;
- 1.983 (24,8%)iş kredit müqaviləsi və bank əmanəti, bank hesabatı müqaviləsinə dair;
- 88 (1,1%) iş sığorta müqaviləsinə dair;

- 173 (2,2%) vərəsəlik hüququ ilə bağlı mübahisələrə dair;

- 254 (3,2%) aliment alınması tələblərinə dair;

-qalan 2.335 (29,2%) işlər isə digər mülki mübahisələrlə bağlı olmuşdur.

MK-da 2018-ci ildə kassasiya qaydasında 8.460 baxılmış mülki işlər üzrə apellyasiya instansiyası məhkəmələrinin:

-6.974 (82,4%) iş üzrə qətnamə və ya qərardadı dəyişdirilmədən saxlanılmış;

-1.508 (18,9%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmiş, onlardan:

-1.339 (16,8%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılmış,

-83 (1%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş),

-2 (0,1%) iş üzrə qətnamə ləğv edilərək iş baxılmamış saxlanılmış,

-84 (1%) iş üzrə qətnamə ləğv edilərək iş üzrə icraata xitam verilmiş;

-61 (0,7%) iş üzrə qətnamə və qərardad dəyişdirilmiş:

-30 (0,4%) iş üzrə kassasiya icraatına xitam verilmişdir.

2019-cu ildə kassasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən 92.345 manat dövlət rüsumu ödənilmişdir.

2018-ci ildə kassasiya şikayəti ilə müraciət edənlər tərəfindən 92.491 manat dövlət rüsumu ödənilmişdir.

Müqayisəli təhlildən görünür ki¸ 2018-ci ilə nisbətən 2019-cu ildə baxılmış işlər üzrə dövlətə ödənilmiş dövlət rüsumunun miqdarı 146 manat (0,2%) azalmışdır.

2019-cu il ərzində birinci və apellyasiya instansiyalarında mülki işlərə baxılarkən qanunvericiliyin tətbiqi ilə yol verilmiş qanun pozuntusu və nöqsanlarla əlaqədar olaraq Mülki Kollegiya tərəfindən aşağı instansiya məhkəmələrinə və müvafiq orqanlara 50 irad və ya icmal məktubu göndərilmişdir.

Ali Məhkəmənin Mülki Kollegiyasında 2018-ci ildə baxılan mülki işlərüzrə 8 xüsusi qərardad qəbul edildiyi halda, 2019-cu ildə cəmi 23 iş üzrə xüsusi qərardad çıxarılmışdır.

Ali Məhkəmənin MK-da kassasiya qaydasında baxılmış işlərə dair məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında 2019-cu ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

**M Ə L U M A T**

| 2019-cu il Mülki kollegiya | CƏMİ BAXILIB | Apellyasiya instansiya məhkəməsinin qətnamə və qərardadı dəyişdirilmədən saxlanılıb | Ləğv olunaraq iş, | | | | | Qətnamə və ya qərardadı dəyişdirilmişdir | Kassasiya icraatına xitam verilmişdir | Xüsusi qərardad çıxarılmışdır |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Cəmi ləğv olunub | Yenidən baxılması üçün apellyasiya instansiyasına göndərilib | Yeni qərar qəbul edilib | Ərizə baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| Bakı Apellyasiya Məhkəməsi | 4.281 | 3.380<br>79% | 843<br>19,7% | 741<br>17,3% | 43<br>1% | 1<br>0,02% | 58<br>1,4% | 37<br>0,9% | 21<br>0,5% | 17 |
| Gəncə Apellyasiya Məhkəməsi | 1.043 | 867<br>83,1% | 167<br>16% | 151<br>14,5% | 9<br>0,9% | | 7<br>0,7% | 8<br>0,8% | 1<br>0,1% | 3 |
| Sumqayıt Apel. Məhkəməsi | 998 | 788<br>79% | 201<br>20,1% | 177<br>17,7% | 12<br>1,2% | | 12<br>1,2% | 5<br>0,5% | 4<br>0,4% | 2 |
| Şirvan Apellyasiya Məhkəməsi | 831 | 692<br>83,3% | 132<br>15,9% | 117<br>14% | 11<br>1,3% | | 4<br>0,5% | 6<br>0,7% | 1<br>0,1% | - |
| Şəki Apellyasiya Məhkəməsi | 790 | 622<br>78,7% | 160<br>20,3% | 148<br>18,7% | 8<br>1% | 1<br>0,1% | 3<br>0,4% | 5<br>0,6% | 3<br>0,4% | 1 |
| Naxçıvan MR Ali Məhkəməsi | 42 | 37<br>88,1% | 5<br>11,9% | 5<br>11,9% | | | | | | |
| Yekun | 7.985 | 6.386<br>80% | 1.508<br>18,9% | 1.339<br>16,7% | 83<br>1% | 2<br>0,1% | 84<br>1,1% | 61<br>0,8% | 30<br>0,4% | 23 |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin MK-da 2019-cu ildə **7.985** işə baxıldığı halda, 2018-ci ilin müvafiq dövründə isə **8.460** işə baxılmışdır ki, bu da 2019-cu ildə baxılmış **475 işin (5,6%) azalmasını göstərir.**

Qeyd olunan statistik məlumatları müqayisə etdikdə görünür ki, apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə və ya qərardadların sayı 2019-cu ildə **1.508** olduğu halda, 2018-ci ilin müvafiq dövründə isə bu rəqəm **1.378 iş** olmuşdur ki, bu da **130 işin (9,4%) artmasını göstərir.**

Xarici ölkə məhkəmələrinin qətnaməsinin tanınması və icrası barədə 2019-cu ildə Mülki Kollegiyanın icraatında 195 ərizə olmuş, onlardan 30 ərizə 2018-ci ildən qalıq kecmiş, 165 ərizə 2019-cu ildə daxil olmuş, 169 ərizəyə baxılmış, 26 ərizə 2020-ci ilə qalıq kimi keçmişdir.

2018-ci ildə Mülki Kollegiyanın icraatında xarici ölkə məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 172 ərizə olmuş, onlardan 12 ərizə 2017-ci ildən qalıq kecmiş, 160 ərizə 2018-ci ildə daxil olmuş, həmin ildə 142 ərizəyə baxılmış, 30 ərizə isə 2019-ci ilə qalıq kimi keçmişdir.

2019-cu illə 2018-ci ili müqayisə etdikdə görünür ki, 2019-cu ildə mülki kollegiyanın icraatında Azərbaycan Respublikasında xarici ölkə məhkəmələrinin qətnaməsinin tanınması və icrası barədə 23 (11,79%) ərizə çox daxil olmuşdur.






## 2. Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası

Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasında (bundan sonra «İİK») apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qəbul etdikləri qətnamə, qərar və qərardadlarından verilən kassasiya şikayətinə və işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin İnzibati-iqtisadi kollegiyasında qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2019-cu ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi Kollegiyasının icraatında olan 4.549 iş olmuş, onlardan (16,02%) inzibati və iqtisadi mübahisələrə dair 729 iş 2018-cı ildən qalıq keçmiş, hesabat dövründə isə 3.820 (83,98%) iş daxil olmuşdur.

2018-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi Kollegiyasının icraatında olan 3.725 işdən 475 (12,75%) iş 2017-ci ildən qalıq keçmiş, hesabat dövründə isə 3.250 (87,25%) iş daxil olmuşdur.

Beləliklə, müqayisəli təhlillə müəyyən edilmişdir ki, 2018-ci ilə nisbətən 2019-cu ildə icraata inzibati və iqtisadi mübahisələrə dair **824 (22,2%) iş çox daxil olmuşdur.**

2019-cu ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi Kollegiyasının icraatında olan 4.549 işdən 3.960 (87%) iş inzibati, 589 (13%) iş isə iqtisadi mübahisələrə dair olmuşdur.

2018-ci ildə isə kollegiyanın icraatında olan 3.725 işdən 3.166 (85%) iş inzibati, 559 (15%) iş isə iqtisadi mübahisələrə dair olmuşdur.

Beləliklə, müəyyən edilmişdir ki, 2018-ci ilə nisbətən 2019-cu ildə İİK-nın icraatında inzibati mübahisələrə dair **794 (25 %) iş**, iqtisadi mübahisələrə dair isə **30 (5,4%) iş çox daxil olmuşdur.**

2019-cu ildə İİK-nın icraatında olan 4.549 işdən:

-3.662 (80,5%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış,

-40 (0,9%) iş baxılmadan geri qaytarılmış,

-270 (5,9%) iş üzrə kassasiya mümkün sayılmamış,

-2 (0,1%) aidiyyət mübahisələndirilməsi ilə əlaqdəar olaraq iş apellyasiya məhkəməsinə göndərilmiş,

-575 (12,6%) iş isə 2020-ci ilə qalıq keçirilmişdir.

2018-ci ildə İİK-da icraatında olan 3725 işdən 2.742 işə baxılaraq yekun məhkəmə qərarı çıxarılmışd, 2019-cu ildə belə işlərin sayı 105 (4%) artaraq 3.662 iş təşkil etmişdir.

2019-cu ildə İİK-da yekun məhkəmə qərarı çıxarılmaqla baxılan işlərin təhlili göstərir ki, 3.662 işdən:

-393 (10,7%) iş Əmlak Məsələləri Dövlət Komitəsi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

-1.786 (48,8%) iş Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

-258 (7%) iş Bələdiyələr, İcra Hakimiyyəti və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

-377 (10,3%) iş Vergilər Nazirliyi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

- 21 (0,6%) iş icarə müqaviləsi üzrə;
- 42 (1,1%) iş borç müqaviləsi üzrə;
- 35 (1%) iş kredit müqaviləsi, bank əmanəti və ya bank hesabatı müqaviləsi üzrə;
- 10 (0,3%) iş sığorta müqaviləsi üzrə;
- 740 (20,2%) diğər struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə olmuşdur.

İİK-da kassasiya qaydasında baxılmış 3.662 iş üzrə çıxarılmış yekun məhkəmə qərarlarından:

-2.557 (69,8%) iş üzrə qətnamə, qərar və ya qərardad dəyişdirilmədən saxlanılmışdır.

-1.060 (29,5%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmiş, onlardan:

-814 (22,2%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

-160 (4,4%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş);

-53 (1,4%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış və ya mümkün sayılmamış;

-33 (0,9%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmiş;

- 19 (0,5%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş;
- 26 (0,7%) iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

2019-cu ildə kasasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən 6.880 manat dövlət rüsumu ödənildiyi halda, 2018-ci ildə həmin 6.780 manat dövlət rüsumu ödənilmiş, yəni hesabat ilindən ödə\nilmiş dövlət rüsumunun məbləği 100 (1,5%) manat artmışdır.

Hesabat dövründə Ali Məhkəmənin İİK-da baxılan inzibati-iqtisadi mübahisələr üzrə 12 xüsusi qərardad çıxarılmışdır. 2019-cu il ərzində birinci və apellyasiya instansiyalarında inzibati-iqtisadi mübahisələrə dair işlərə baxılarkən qanunvericiliyin tətbiqi ilə yol verilmiş qanun pozuntusu və nöqsanlarla əlaqədar olaraq kollegiya tərəfindən aşağı instansiya məhkəmələrinə və müvafiq orqanlara 30-a yaxın irad və ya icmal məktubu göndərilmişdir.

**2019-cu ildə İnzibati-iqtisadi kollegiyada baxılmış işlərə dair müqayisəli (ümumi)**

**C Ə D V Ə L**

| | | 2018 il | 2019 il | Fərq %-la | |
|---|---|---|---|---|---|
| | | | | Artıb | Azalıb |
| Cəmi icraatda olmuşdur | | 3.725 | 4.549 | 824 (22,2%) | |
| O cümlədən daxil olmuşdur | | 3.250 | 3.820 | 570 (17,5%) | |
| Əvvəlki ildən qalıq keçirilmişdir | | 475 | 729 | 254 (53,5%) | |
| Cəmi baxılmışdır | | 2.742 | 3.662 | 105 (4%) | |
| Dəyişdirilmədən saxlanılmışdır | | 1.872 | 2.557 | 160 (9,3%) | |
| Cəmi ləğv edilmişdir | | 809 | 1.060 | 685 (84,7%) | |
| Onlardan | Apellyasiya məhkəməsinə qaytarılmışdır. | 598 | 814 | 216 (36,1%) | |
| | İş üzrə yeni qərar qəbul edilib. | 100 | 160 | 60 (60%) | |
| | İddia (ərizə) baxılmamış saxlanılıb və ya iddia mümkün sayılmamışdır | 83 | 53 | | 30 (36,1%) |
| İş üzrə icraata xitam verilib | | 28 | 33 | 5 (17,9%) | |
| Kassasiya icraatına xitam verilmişdir | | 33 | 26 | 7 (21,2%) | |
| Dəyişdirilmişdir | | 28 | 19 | 9 (32,1%) | |
| Baxılmadan geri qaytarılan və ya kasasiya mümkün sayılan, baxılmaməş saxlanılan işlər | | 254 | 312 | 58 (22,8%) | |
| Növbəti aya qalıq keçirilmişdir | | 729 | 575 | | 154 (21,1%) |
| Rüsum ödənilmişdir (manat) | | 6.780 | 6.880 | 100 (1,5%) | |

## İnzibati işlər üzrə




2019-cu ildə icraatda olmuş inzibati mübahisələrə dair 3.960 işdən 669 (17%) iş 2018-i ildən qalıq keçmiş, 3.291 iş (83%) hesabat ilində daxil olmuşdur.

2018-ci ildə icraatda olmuş inzibati mübahisələrə dair 3.166 işdən 392 (12,4%) iş 2017-ci ildən qalıq keçmiş, 2.774 iş (87,6%) 2018-ci ildə daxil olmuşdur.

Müqayisəli təhlildən görünür ki, 2019-cu ildə icraatda olan işlərin sayı 25% (794 iş) artmışdır.

2019-cu ildə daxil olan 3.291 iş ilə 2018-ci ilin müvafiq dövründə daxil olan 2.774 işlə müqayisə etdikdə görünür ki, 2019-cu ildə daxil olan 517 iş sayı (18,6%) artmışdır.

2018-ci ildən 2019-cu ilə qalıq keçmiş 669 işi və 2018-ci ilin müvafiq dövrünə qalıq keçən 392 işlə müqayisə etdikdə görünür ki, 2019-cu ildə 277 iş (70,7%) artmışdır.

2019-cu ildə icraatda olmuş 3.960 inzibati işdən:

-3.162 (79,8%) işə mahiyyəti üzrə baxılmış,

-270 (6,8%) iş üzrə kassasiya mümkün sayılmamış,

-2 (0,1%) aidiyyət mübahisələndirilməsi bağlı iş yeni apellyasiya məhkəməsinə göndərilmiş,

-526 iş (13,3%) 2020-ci ilə qalıq keçmişdir.

2019-cu ildə 3.960 icraatda olan inzibati işdən 732 (14,2%) iş qərardad ilə əlaqadar olmuşdur. 2018-ci ildə 3.166 icraatda olan inzibati işdən 449 (14,2%) iş qərardad ilə əlaqadar olmuşdur.Beləliklə, 2019-cu ildə 283 (63%) inzibati iş üzrə qəbul edilmiş qərardad artmışdır.

İİK-da 2019-cu ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan işlərin təhlili göstərir ki, 3.162 işdən:

-393 (12,4%) iş Əmlak Məsələləri Dövlət Komitəsi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

-1.786 (56,5%) iş Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

-258 (8,2%) iş Bələdiyələr, İcra Hakimiyyəti və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

- 257 (8,1%) iş Vergilər Nazirliyi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

- 468 (14,8%) digər struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə olmuşdur.

İİK-da kassasiya qaydasında baxılmış 3.162 inzibati iş üzrə çıxarılmış yekun məhkəmə qərarlarının təhlili göstərir ki:

-2. 191(69,3%) iş üzrə qərar və ya qərardad dəyişdirilmədən saxlanılmış;

-932 (29,5%) iş üzrə qərar və ya qərardad ləğv edilmiş, onlardan:

-708 (22,4%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış,

-155 (4,9%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;

-53(1,7%) iş üzrə qərar və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) mümkün sayılmamış; 16 (0,5%) iş üzrə qərar və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmiş;

-15 (0,5%) iş üzrə qərar ya qərardad dəyişdirilmiş;

-24 (0,8%) iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.




2019-cu ildə İnzibati-iqtisadi kollegiyada baxılmış işlər üzrə 2.106 manat dövlətə rüsum ödənilmişdir. 2018-ci ildə isə İnzibati-iqtisadi kollegiyada baxılmış işlər üzrə 1.799 manat dövlətə rüsum ödənilmişdir.

Göründüyü kimi, 2018-ci ilə nisbətən 2019-cu ildə baxılmış işlər üzrə ödənilmiş dövlət rüsumunun məbləği 307 manat (17%) azalmışdır.

## *Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi kollegiyasında 2019-cu ildə apellyasiya instansiyası məhkəmələrinin inzibati mübahisələrə dair işlər üzrə qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında*

**M Ə L U M A T**

| 2019-cu il<br>İnzibati kollegiya | Kassasiya qaydasında baxılmışdır | Qərar və ya qərardad qüvvədə saxlanılmışdır (İPM 96.9) | Cəmi ləğv edilmişdir | 0nlardan ləğv edilərək | | | | Qərar və ya qərardad dəyişdirilmişdir (İPM 96.9) | Kassasiya icraatına xitam verilmişdir |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Qərar və ya qərardad ləğv edilərək iş apelyasiya instansiya məhkəməsinə qaytarılmışdır (İPM96.5) | Qərar və ya qərardad ləğv edilərək yeni qərar qəbul edilmişdir (İPM 96.9) | Qərar və ya qərardad ləğv olunaraq iddia mümkün sayılmamışdır | Qərar və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmişdir | | |
| **Bakı Apelyasiya Məhkəməsi** | **1611** | **1123<br>69,7%** | **464<br>28,8%** | **337<br>20,9%** | **84<br>5,2%** | **36<br>2,2%** | **7<br>0,4%** | **10<br>0,6%** | **14<br>0,9%** |
| **Gəncə Apellyasiya Məhkəməsi** | **334** | **219<br>65,6%** | **111<br>33,2%** | **98<br>29,3%** | **4<br>1,2%** | **7<br>2,1%** | **2<br>0,6%** | **2<br>0,6%** | **2<br>0,6%** |
| **Sumqayıt Apellyasiya Məhkəməsi** | **352** | **247<br>70,2%** | **97<br>27,6%** | **81<br>23%** | **11<br>3,1%** | **2<br>0,6%** | **3<br>0,9%** | **2<br>0,6%** | **6<br>1,7%** |
| **Şırvan Apelyasiya Məhkəməsi** | **448** | **228<br>64,3%** | **160<br>35,7%** | **101<br>22,5%** | **50<br>11,2%** | **7<br>1,6%** | **2<br>0,4%** | **-** | **-** |
| **Şəki Apelyasiya Məhkəməsi** | **412** | **311<br>75,5%** | **98<br>23,8%** | **89<br>21,6%** | **5<br>1,2%** | **1<br>0,2%** | **2<br>0,5%** | **1<br>0,2%** | **2<br>0,5%** |
| **Naxçıvan MR Ali Məhkəməsi** | **5** | **3<br>60%** | **2<br>40%** | **2<br>40%** | | | | | |
| **Yekun cəmi** | **3162** | **2191<br>69,3%** | **932<br>29,5%** | **708<br>22,4%** | **104<br>3,3%** | **53<br>1,7%** | **16<br>0,5%** | **15<br>0,5%** | **24<br>0,8%** |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin İİK-da 2019-cu ildə **3.162** işə baxıldığı halda, 2018-ci illə müqayisədə **2.277** işə baxılmış, bu da 2019-cu ildə **855** işin (38,9%) işin artmasını göstərir.

Apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qərar və ya qərardadların sayı 2019-cu ildə **932** olduğu halda, 2018-ci ilin müvafiq dövründə isə **669** iş ləğv edilmiş, bu da 2019-cu ildə **263 (39,3%)** ləğv olunmuş işin artmasını göstərir.

**İqtisadi işlər üzrə**




2019-cu il ərzində icraatda olmuş iqtisadi mübahisələrə dair 589 işdən 60 iş (10,2%) 2018-ci ildən qalıq keçmiş, 529 iş (89,8%) isə 2019-cu ildə daxil olmuşdur.

2018-ci ildə ərzində icraatda olmuş iqtisadi mübahisələrə dair 559 işdən 83 iş (14,8%) 2017-ci ildən qalıq keçmiş, 476 iş (85,2%) isə 2018-ci ildə daxil olmuşdur.

Beləliklə, 2019-cu ildə icraatda olan 589 iş ilə 2018-ci ilin müvafiq dövründə icraatda olan 559 işlə müqayisə edildikdə görünür ki, 2019-cu ildə icraatda olan 30 (5,4%) iş artmışdır.

2019-cu ildə daxil olan 529 işi 2018-ci ilin müvafiq dövründə daxil olan 476 işlə müqayisə etdikdə görünür ki, 2019-cu ildə daxil olan işlərin sayında 53 işin (11,1%) artması müşahidə olunur.

2018-2019-cu illərə qalıq keçmiş işləri müqayisə etdikdə görünür ki, 2019-cu ilə qalıq keçən işlər 23 iş (27,7%) azalmışdır.

2019-cu ildə icraatda olan 589 işdən 186 (31,6%) iş qərardad ilə əlaqadar olmuşdur. 2018-ci ilin müvafiq dövründə isə icraatda olan 559 işdən 93 (6,6%) iş qərardad ilə əlaqadar olmuşdur ki, bu da 2019-cu ildə qərardad ilə 93 (100%) işin azalmasını göstərir.

2019-cu ildə icraatda olmuş 589 işdən 500 (84,9%) işə mahiyyəti üzrə baxılmış, 40 iş (6,8%) MPM-nin 408-ci maddəsi üzrə baxılmadan geri qaytarılmış, 49 iş (8,3%) 2020-ci ilin növbəti ayana baxılması üçün qalıq keçmişdir.

İİK-da 2019-cu ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan işlərin təhlili göstərir ki, 500 işdən:

-120 (24%) iş Vergilər Nazirliyi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

- 21 (4,2%) iş icarə müqaviləsi üzrə;

- 42 (8,4%) iş borç müqaviləsi üzrə;

- 35 (7%) iş kredit müqaviləsi, bank əmanəti və ya bank hesabatı müqaviləsi üzrə;

- 10 (2%) iş sığorta müqaviləsi üzrə;

- 272 (54,4%) digər struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə olmuşdur.

Baxılmış 500 işdən

-366 iş üzrə (73,2% ) qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış;

-28 iş üzrə (25,6%) qətnamə və ya qərardad ləğv ləğv edilmiş, onlardan:

- 106 iş (21,2%) qətnamə və ya qərardad ləğv ləğv edilərək iş baxılması üçün yenidən apellyasiya məhkəməsinə qaytarılmış;

- 5 (1%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;

- 17 (3,4%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək icraata xitam verilmiş;

- 4 (0,8%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş;

- 2 (0,4%) iş üzrə kassasiya icraata xitam verilmişdir.

Bu məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.



*Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi kollegiyasında 2019-cu ildə apellyasiya instansiyası məhkəmələrinin iqtisadi işlər üzrə qərar və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında*

**M Ə L U M A T**

| 2019-cu il<br>İqtisadi işlər | CƏMİ BAXILIB | Apellyasiya instansiya məhkəməsinin qətnamə və qərardadı dəyişdirilmədən saxlanılıb | Ləğv olunaraq iş, | | | | | Qətnamə və ya qərardadı dəyişdirilmişdir | Kassasiya icraatına xitam verilmişdir | Xüsusi qərardad çıxarılmışdır |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | **Cəmi ləğv olunub** | Yenidən baxılması üçün apellyasiya instansiyasına göndərilib | Yeni qərar qəbul edilib | Ərizə baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| **Bakı Apellyasiya Məhkəməsi** | **360** | **266<br>73,9%** | **88<br>24,4%** | **71<br>19,7%** | **5<br>1,4%** | | **12<br>3,3%** | **4<br>1,1%** | **2<br>0,6%** | |
| **Gəncə Apellyasiya Məhkəməsi** | **45** | **37<br>82,2%** | **8<br>17,8%** | **8<br>17,8%** | | | | | | |
| **Sumqayıt Apel. Məhkəməsi** | **50** | **40<br>80%** | **10<br>20%** | **7<br>14%** | | | **3<br>6%** | | | |
| **Şirvan Apellyasiya Məhkəməsi** | **29** | **13<br>44,8%** | **16<br>55,2%** | **15<br>51,7%** | | | **1<br>3,4%** | | | |
| **Şəki Apellyasiya Məhkəməsi** | **16** | **10<br>62,5%** | **6<br>37,5%** | **5<br>31,3%** | | | **1<br>6,3%** | | | |
| **Naxçıvan MR Ali Məhkəməsi** | **yox** | | | | | | | | | |
| **Yekun** | **500** | **366<br>73,2%** | **128<br>25,6%** | **106<br>21,2%** | **5<br>1%** | | **17<br>3,4%** | **4<br>0,8%** | **2<br>0,4%** | **1** |

## 3. Ali Məhkəmənin Cinayət kollegiyası




Ali Məhkəmənin Cinayət kollegiyasında (bundan sonra «CK») apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

CK-da müharibə və hərbi xidmət əleyhinə olan, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işləri, məhkəməyədək sadələşdirilmiş və ya xüsusi ittiham qaydasında şikayət üzrə materiallar istisna olmaqla, qalan işlərə (materiallara) kassasiya qaydasında baxılır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının icraatına 2019-cu ildə **2.957** nəfər barəsində **2.601** iş daxil olmuşdur. Onlardan **725 (24,5%)** nəfər barəsində **713 (27,4%)** iş 2018-ci ildən qalıq keçmiş, **2.232 (75,5%)** nəfər barəsində **1.888 (72,6%)** iş 2019-cu ildə daxil olmuşdur.

2018-ci ildə Cinayət kollegiyasının icraatında **2.904** nəfər barəsində **2.606** iş olmuşdur. Onlardan **519 (17,9%)** nəfər barəsində **504 (19,3%)** iş 2017-ci ildən qalıq keçmiş, **2.385 (82,1%)** nəfər barəsində **2.102 (80,7%)** iş 2018-ci ildə daxil olmuşdur.

2018-2019-cu illərdə icraatda olan işlər müqayisə edildikdə görünür ki, 2019-cu ildə kollegiyanın icraatında olan işlərin sayı **0,2% (5 iş)**iş azalmış, lakin məhkum olunmuş şəxslərin sayında **53 (1,8%)** nəfər artım müşahidə olunur.

Həmin illərin müqayisəsindən müəyyən edilir ki, Cinayət kollegiyasına daxil olan 2**06 (8,6%)** nəfər haqqında **214 (10,2%)** iş azalmışdır.

Bu illərdə qalıq keçən işlər müqayisə edildikdə müəyyən edilir ki, 2019-cu ilə keçən **206 (39,7%)** nəfər haqqında **209 iş (41,5%)** artmışdır.

2019-cu ildə icraatda olmuş **2.957** nəfər haqqında **2.601** işdən **291 (9,8%)** nəfər haqqında **206 (7,9%)** iş kassasiya protesti, **2 (0,1%)** nəfər haqqında **2 (0,1%)** iş təqdimat, qalan **2.664 (90,1%)** nəfər haqqında **2.393 (92%)** iş isə kassasiya şikayəti kimi qeydə alınmışdır.

2018-ci ildə icraatda olmuş **2.904** nəfər haqqında **2.606** işdən **333 (11,4%)** nəfər haqqında **299 (11,5%)** iş kassasiya protesti, **1 (0,1%)** nəfər haqqında **1 (0,1%)** iş təqdimat, qalan **2.570 (88,5%)** nəfər haqqında **2.306 (88,4%)** iş isə kassasiya şikayəti kimi qeydə alınmışdır.

Son iki ilin müqayisəsi göstərir ki, 2019-cu ildə **42 (12,6%)** nəfər barəsində **93 (31,1%)** iş üzrə kassasiya protestlərinin və **1 (100%)** nəfər haqqında **1 (100%)** iş üzrə təqdimatın azalması, **94 (3,7%)** nəfər barəsində **87 (3,8%) iş** üzrə isə kassasiya şikayətlərinin artması müşahidə edilir.

2019-cu ildə Cinayət kollegiyasının icraatında olan **2.957** nəfər haqqında **2.601** işdən **2.295 (77,6%)** nəfər haqqında **2.045 (78,6%) işə** baxılmış və **662 (22,4%)** nəfər haqqında **556 (21,4%)** iş isə 2020-ci ilə qalıq keçmişdir.

Cinayət Kollegiyasında baxılmış **2.295** nəfər haqqında **2.045** işdən:

**- 1.208 (52,6%)** nəfər haqqında **1.037 iş (50,7%)** üzrə olan apellyasiya instansiyası məhkəmələrinin qərarları (hökmləri) dəyişdirilmədən saxlanılmış;

**-179 (7,8%)** nəfər haqqında **159 (7,8%)** iş üzrə qərarlar (hökmlər) ləğv olunmuş, onlardan:

- **167 (7,3%)** nəfər haqqında **147 (7,2%)** iş üzrə qərarlar (hökmlər) ləğv edilərək, işlər yenidən baxılması üçün apellyasiya instansiyası məhkəmələrinə göndərilmiş;




**- 11(0,4%)** nəfər haqqında **11 (0,5%)** iş üzrə qərarlar (hökmlər) ləğv edilərək, cinayət işinin icraatına xitam verilmiş;

- **1 (0,1%)** nəfər haqqında **1 (0,1%)** material üzrə qərar ləğv edilərək, yeni qərar qəbul edilmiş ;

- **155 (6,7%)** nəfər haqqında **144** iş **(7,1%)** üzrə olan qərarlar (hökmlər) dəyişdirilmiş;

**- 1 (0,1)** nəfər haqqında **1 (0,1%)** iş üzrə kassasiya icraatına xitam verilmiş;

**- 396 (17,3%)** nəfər haqqında **390 (19%)** iş üzrə olan qərarlardan (hökmlərdən) kassasiya şikayəti vermə müddəti bərpa

olunmamış;

**- 52 (2,3%)** nəfər haqqında **52 (2,5%)** iş üzrə olan kassasiya şikayəti və kassasiya protesti baxılmamış saxlanılmış;

**- 304 (13,2%)** nəfər haqqında **262 (12,8%)** iş üzrə olan kassasiya şikayəti və kassasiya protesti, məhkumların və onların müdafiəçilərinin, dövlət ittihamcılarının ərizələrinə əsasən geri qaytarılmışdır.

Hesabat dövründə Cinayət Kollegiyasında baxılmış cinayət işlərinin üzrə aparılan ibtidai istintaq və məhkəmə araşdırması zamanı zamanı cinayət prosesi iştirakçılarının hüquqlarının əhəmiyyətli dərəcədə pozulmasına səbəb olan kobud qanun pozuntularına yol vermiş 3 nəfər müstəntiq və və 3 nəfər barəsində **4 xüsusi qərar** çıxarılaraq müvafiq tədbirlərin görülməsi üçün həmin qərarlar Azərbaycan Respublikasının Daxili İşlər Nazirinə, Şumqayıt Apellyasiya Məhkəməsinə və Məhkəmə-Hüquq Şurasına göndərilmişdir.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasında 2019-cu ildə apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

**M Ə L U M A T**

| **2019 il**<br>**Cinayət işlər üzrə (nəf.)** | **Cəmi baxılıb** | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır (şəxslərin sayı) | **Cəmi ləğv edilmişdir** | **Cəmi dəyişdirilmişdir** | Kassasiya icraatına xitam verilmişdir | Kassasiya şikayəti və ya kassasiya protesti vermə müddəti bərpa edilməmişdir | Cinayət işi geri qaytarılıb | Xüsusi qərar çıxarılmışdır |
|---|---|---|---|---|---|---|---|---|
| **Bakı Apellyasiya Məhkəməsi** | **993** | **542**<br>**54,6%** | **97**<br>**9,8%** | **98**<br>**9,9%** | | **59**<br>**5,9%** | **197**<br>**19,8%** | |
| **Gəncə Apellyasiya Məhkəməsi** | **183** | **120**<br>**65,6%** | **17**<br>**9,3%** | **3**<br>**1,6%** | | **12**<br>**6,6%** | **31**<br>**16,9%** | |
| **Sumqayıt Apel.Məhkəməsi** | **211** | **137**<br>**64,9%** | **29**<br>**13,7%** | **7**<br>**3,3%** | **1**<br>**0,5%** | **12**<br>**5,7%** | **25**<br>**11,8%** | **1** |
| **Şirvan Apellyasiya Məhkəməsi** | **315** | **181**<br>**57,5%** | **15**<br>**4,8%** | **27**<br>**8,6%** | | **36**<br>**11,4%** | **56**<br>**17,8%** | **2** |
| **Şəki Apellyasiya Məhkəməsi** | **133** | **94**<br>**70,7%** | **13**<br>**9,8%** | **6**<br>**4,5%** | | **5**<br>**3,8%** | **15**<br>**11,3%** | |
| **Naxçıvan MR Ali Məhkəməsi** | **6** | **3**<br>**50%** | | | | **1**<br>**16,7%** | **2**<br>**33,3%** | |
| **Respublika Apel.Məhkəməsi** | **3** | | | | | **2**<br>**66,7%** | **1**<br>**33,3%** | |
| **Yekunu** | **1.844** | **1.077**<br>**58,4%** | **171**<br>**9,3%** | **141**<br>**7,6%** | **1**<br>**0,1%** | **127**<br>**6,9%** | **327**<br>**17,7%** | **3** |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin CK-da 2019-cu ildə 2.295 nəfər barəsində 2.045 işə baxıldığı halda, 2018-ci ilin müvafiq dövründə isə 2.179 nəfər barəsində 1.893 işə baxılmışdır. Göründüyü kimi, 2018-ci il ilə müqayisədə 2019-cu ildə baxılmış işlərin sayı 152 iş (8%), şəxslərin sayı isə 116 (5,3%) nəfər artmışdır.

2019-cu ildə 179 nəfər haqqında 159 iş ləğv olunduğu halda, 2018-ci ilin müvafiq dövründə isə 234 nəfər haqqında 176 iş ləğv olunmuş, yəni 2019-cu ildə ləğv olunmuş işlərin sayı 17 (9,6%) iş, şəxslərin sayı isə 55 (23,5%) nəfər azalmışdır.

## 4. Ali Məhkəmənin Hərbi kollegiyası




Ali Məhkəmənin Hərbi kollegiyasında (bundan sonra «HK») müharibə və hərbi xidmət əleyhinə olan, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işləri üzrə apellyasiya instansiyası məhkəmələrinin hərbi kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəmələrinin hərbi məhkəmələrin baxdığı işlər üzrə çıxarılmış hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

Hərbi kollegiyanın icraatına 2019-cu ildə **182** nəfər haqqında **115** iş daxil olmuş, onlardan **134 (73,6%)** nəfər haqqında **85 (74%)** iş 2019-cu ildə daxil olmuş, **48 (26,4%)** nəfər haqqında **30 (26%)** iş isə 2018-ci ildən qalıq keçmişdir.

2018-ci ildə Hərbi kollegiyanın icraatında **175** nəfər haqqında **132** iş daxil olmuş, onlardan **127 (72,6%)** nəfər haqqında **102 (77,3%)** iş 2018-ci ildə daxil olmuş, **48 (27,4%)** nəfər haqqında **30 (22,7%)** iş 2017-cı ildən qalıq keçmişdir.

Son iki ilin müqayisəsi göstərir ki, hesabat dövründə icraatda olan işlərin sayında **7 (4%)** nəfər barəsində artma, **17 (12,9%)** işin sayında isə azalması müşahidə edilir.

Qalıq keçən işlərin müqayisəsi göstərir ki, 2018-2019-cu illərə qalıq keçən iş və nəfər sayında artma və ya azalma olmamışdır.

2019-cu ildə icraatda olmuş **182** nəfər haqqında **115** işdən **21 (11,5%)** nəfər haqqında **11 (9,6%)** iş kassasiya protesti, **161 (88,5%)** nəfər haqqında **104 (90,4%)** iş isə kassasiya şikayəti ilə bağlı olmuşdur.

2018-ci ildə icraatda olmuş **175** nəfər haqqında **132** işdən **21 (12%)** nəfər haqqında **16 (12,1%)** iş kassasiya protesti, **154 (88%)** nəfər haqqında **116 (87,9%)** iş isə kassasiya şikayəti kimi qeydə alınmışdır.

Son iki ili  müqayisədə etdikdə görünür ki, kassasiya protestlərinin sayında **5 işin (31,2%) və** kassasiya şikayəti ilə **12 işin (10,3%) azalması,** kassasiya şikayəti ilə nəfər sayında isə **7 (23,4%) nəfər** barəsində işin **artması** müşahidə edilir.

2019-cu ildə Hərbi kollegiyanın icraatında olan **182** nəfər haqqında **115** işdən **140 (77%)** nəfər haqqında **91** (79,1%) işə baxılmış və **42 (23%)** nəfər haqqında **24** (20,9%) iş isə 2020-ci ilə qalıq keçmişdir.

Hesabat dövründə kollegiyada baxılmış **140 nəfər** haqqında **91 işdən:**

- **81 (57,9%)** nəfər haqqında **52 iş (57,2%)** üzrə olan apellyasiya məhkəmələrinin qərarlar (hökmləri) dəyişdirilmədən saxlanılmış;
- **13 nəfər (9,3%) haqqında 7 (7,7%) iş üzrə qərarlar (hökmləri) ləğv** edilərək, iş yenidən baxılması üçün apellyasiya baxışına göndərilmiş;
- **13 (9,3%)** nəfər haqqında **11 iş (12%)** üzrə olan qərarlar (hökmləri) dəyişdirilmiş;
- **4 (2,9%)** nəfər haqqında **4** iş **(4,4%)** üzrə olan qərarlardan (hökmlərdən) kassasiya şikayəti vermə müddəti bərpa olunmamış;
- **29 (20,6%)** nəfər haqqında **17 iş (18,7%) üzrə** olan kassasiya şikayəti məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən, geri qaytarılmışdır.

2019-cu ildə baxılmış **140** nəfər haqqında **91** işdən **21 (15%)** nəfər haqqında **11 (11,8%)** iş kassasiya protesti, **119 (85%)** nəfər haqqında **80 (88,2%)** iş isə kassasiya şikayəti kimi qeydə alınmışdır.




2018-ci ildə baxılmış **142** nəfər haqqında **102** işdən **17 (12%)** nəfər haqqında **12 (11,8%)** iş kassasiya protesti, **125 (88%)** nəfər haqqında **90 (88,2%)** iş isə kassasiya şikayəti kimi qeydə alınmışdır.

Son iki ilin müqayisəli təhli lindən  görünür ki, 2019-cu ildə  kassasiya protesti verənlərin sayı **4 (23,5%) nəfər artmış**, **1 (8,3%)** iş **azalmış**, kassasiya şikayəti verənlərin sayı **6 nəfər (11,1%) və 10 iş azalmışdır.**

Hesabat dövründə HK-da baxılan işlər üzrə xüsusi qərar çıxarılmamışdır.

Qeyd olunan məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə ayrı-ayrılıqda aşağıdakı cədvəldə əks olunmuşdur.

***2019-cu ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasında apellyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

**M Ə L U M A T**

| **2019 il**<br>**Hərbi işlər üzrə** | **Cəmi baxılıb** | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır | **Cəmi ləğv edilmişdir** | **Cəmi dəyişdirilmişdir** | Kassasiya icraatına xitam verilmişdir | Kassasiya şikayəti və ya kassasiya protesti vermə müddəti bərpa edilməmişdir | Cinayət işi qeri qaytarılıb | Xüsusi qərar çıxarılmışdır |
|---|---|---|---|---|---|---|---|---|
| **Bakı Apellyasiya Məhkəməsi** | **28** | **16**<br>**57,1%** | | **2**<br>**7,1%** | | | **10**<br>**35,7%** | |
| **Gəncə Apellyasiya Məhkəməsi** | **73** | **42**<br>**57,5%** | **11**<br>**15,1%** | **8**<br>**11%** | | **2**<br>**2,7%** | **10**<br>**13,7%** | |
| **Sumqayıt Apellyasiya Məhkəməsi** | **8** | **7**<br>**87,5%** | **1**<br>**12,5%** | | | | | |
| **Şirvan Apellyasiya Məhkəməsi** | **18** | **10**<br>**55,6%** | | **1**<br>**5,6%** | | | **7**<br>**38,9%** | |
| **Şəki Apellyasiya Məhkəməsi** | **6** | **2**<br>**33,3%** | **1**<br>**16,7%** | **2**<br>**33,3%** | | | **1**<br>**16,7%** | |
| **Naxçıvan MR Ali Məhkəməsi** | **6** | **4**<br>**66,7%** | | | | **2**<br>**33,3%** | | |
| **Yekunu** | **140** | **81**<br>**57,9%** | **13**<br>**9,3%** | **13**<br>**9,3%** | | **4**<br>**2,9%** | **29**<br>**20,7%** | |

**Qeyd:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin HK-da 2019-cu ildə **140** nəfər barəsində **91** işə baxıldığı halda, 2018-ci ilin müvafiq dövründə **142** nəfər barəsində **102** işə baxılmışdır ki, bu da 2019-cu ildə baxılmış işlərin sayına görə **11 iş (10,8%),** şəxslərin sayına görə isə **2 (1,4%)** nəfərin azalmasını göstərir.

Bundan başqa, 2019-cu ildə **13** nəfər barəsində **7** iş ləğv olunduğu halda, 2018-ci ilin müvafiq dövründə isə **6** nəfər haqqında **5** iş ləğv olunmuşdur ki, bu da 2019-cu ildə **2 iş (40%)** və **7 (1,2dəfə)** nəfər barəsində ləğvin artmasını göstərir.

**Ali Məhkəmə Kollegiyalarının hakimləri tərəfindən 2019-cu ildə görülmüş işlər.**

2019-cu ildə kollegiyaların hakimləri bir sıra xarici ölkələrdə ezamiyyətdə olmuş, müxtəlif seminar və konfranslarda iştirak etmiş, müxtəlif hüququ mövzulara dair məqalələri mətbuatda və Ali Məhkəmənin bülletenində dərc edilmişdir. Belə ki,

**Mülki Kollegiyanın hakimlərindən:**

**Sənan Hacıyev-** Məhkəmə islahatları barədə 03.04.2019-cu il tarixli Fərmanın geniş şərhi mövzusunda AzTV telekanalında "Əsas Məsələ" verlişində çıxış etmiş, .10-11 may 2019-cu il Danimarkanın Kopenhagen şəhərində keçirilən Avropa Hakimlərinin İllik Toplantısında, 15 sentyabr 2019-cu il tarixdə Qazaxstan Respublikasının Astana şəhərində keçirilən Beynəlxalq Hakimlərin Assosiyasiyasının 62-ci il dönümü toplantısında, Avropa İnsan Hüquqları Konvensiyanın 8-ci maddəsi ilə qorunan şəxsi həyata hörmət və ailə hüququnun aspektlərinin və müxtəlif kateqoriyalı işlər üzrə uşağın üstün maraqlarının nəzərə alınmasına dair seminarda təlimatçı qismində iştrak etmiş, Azərbaycan Respublikasının Ali Məhkəməsində Azərbaycan Respublikası Vəkillər Kollegiyası və Avropa Hüquqşunas Tələbələri Assosiasiyasının (ELSA Azərbaycan) birgə təşkilatçılığı ilə Azərbaycan vəkilliyinin 100 illiyinə həsr olunmuş VIII Milli Məhkəmə Müsabiqəsinin final mərhələsində mülki iş üzrə proses çəkişməsini qiymətləndirmişdir.

**İlqar Dəmirov-**2019-cu ildə nəşr olunmuş "Mülki hüququn əsasları" kitabının (müəllif Sərvər Süleymanov) rəyçisi olmuş, Ədliyyə Akademiyasında hakimliyə namizədlər üçün "Müqavilələlərdən əmələ gələn öhdəliklərin xüsusiyyətləri" və "Xüsusi icraat qaydasında işlərə baxılmasının prosessual xüsusiyyətləri. Hüquqi əhəmiyyətli olan faktların müəyyən edilməsi barədə ərizələr üzrə icraat" mövzusunda mühazirə oxumuş**,** Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni (2019-cu il, № 4) "İcraatında olan işlər üzrə məhkəmə insan hüquq və azadlıqlarının həyata keçirilməsi ilə bağlı qanunların şərh edilməsi haqqında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə müraciət edə bilər" mövzusunda məqaləsi dərc edilmiş, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1134, 1146 və 1252-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunda iştirak etmiş;

**İlqar Xələfov**

**2**7-28 iyun 2019-cu il tarixlərində Ədliyyə Akademiyasında Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) təşkilatçılığı ilə "Mülki prosesdə hakimlərin iş metodikasının səmərəliliyinin artırılması" mövzusunda seminarda iştirak etmiş;

5 iyul 2019-cu il tarixində Ədliyyə Akademiyasında Ukrayna Milli Hakimlər Məktəbi və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə "Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyası" mövzusunda video-konfrans vasitəsilə təlimdə iştirak etmişdir.

**Əhməd Əhmədov**

-Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülletenində "Qanuni əsaslar olmadan ipotekaya xitam verilməsi və ya ipoteka predmetinin yüklülükdən azad edilməsi yolverilməzdir" mövzusunda məhkəmə səhvləri və "Əmlakı başqa şəxslərdən əldə edən hər bir alıcıda əqdin legitimsizliyi barədə şübhə yaranmadıqda, o vicdanlı alıcı qismində qəbul olunmalıdır" mövzusunda məhkəmə səhvləri barədə məqalələri dərc edilmiş;

-2019-cu ildə nəşr olunmuş "Mülki hüququn əsasları" kitabının təqdimatında (müəllif: Sərvər Süleymanov) iştirak etmiş;

-Sumqayıt Apellyasiya Məhkəməsində ilin yekunlarına dair- "2019-cu ildə mülki işlərə baxılarkən yol verilmiş məhkəmə səhvləri baradə" məruzə etmişldir.

**İnzibati-İqtisadi Kollegiyanın hakimlərindən;**

**Xəqani Məmmədov**:

-Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının təşkil etdiyi hakimlərin tədris prosesində iştirak etmiş;

- 2019-cu il aprel ayında Litva Respublikasında "Məhkəmə fəaliyyəti və icra sistemi ilə tanışlıq" mövzusunda keçirilən konfransda iştirak etmiş;

-Avropa hakimlərinin Məşvərətçi Şurasının 2019-cu ilin noyabrında Fransa Respublikasının Strasburq şəhərində keçirilən növbəti iclasında iştirak etmiş;

- Xalq qəzetinin 2019-cu il dekabr sayında "Məhkəmə-hüquq islahatlarının növbəti mərhələsi - Vahid məhkəmə təcrübəsinin yaradılması mexanizmləri müəyyən edildi" başlıqlı məqaləsi dərc olunmuş;

**Nigar Rəsulbəyova-**13-14 iyun 2019-cu il tarixdə Finlandiya Respublikasına Xelsinki Avropa İnzibati Hakimlər Assosiyasiyasının Vergi hüququ üzrə işçi qrupunun iclasında iştirak etmiş;

**İlqar Dadaşov:**

- "Müəyyən etmə və tanınma haqqında iddialar" mövzusunda inzibati-iqtisadi məhkəmələr və apellyasiya instansiyası məhkəmələrinin hakimləri üçün keçirilən seminarda iştirak etmiş;

- Azərbaycan Respublikasının Ədliyyə Akademiyasında hakimliyə nazmizədlər üçün keçirilən kurslarda "İddia üzərində sərəncam verilməsi və onun hədləri" mövzusunda mühazirə oxumuş;

- Şirvan Apellyasiya Məhkəməsinin hakimlərinin və məhkəmənin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinin sədrlərinin və hakimlərinin iştirakı ilə 2019-cu ildə Şirvan Apellyasiya Məhkəməsi tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar görülmüş işlərin təhlilinə dair keçirilmiş müşavirədə iştirak etmişdir.

- Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Ali Məhkəmə və apellyasiya məhkəmələri ilə birgə layihəsi çərçivəsində "Seçki mübahisələrinin məhkəmə qaydasında həlli" mövzusunda Şirvan Apellyasiya Məhkəməsində keçirilən seminar-müşavirədə iştirak etmiş;

**Rahib Nəbizadə-**

-Şəki Apellyasiya Məhkəməsinin hakimlərinin və məhkəmənin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinin sədrlərinin və hakimlərinin iştirakı ilə 2019-cu ildə Şəki Apellyasiya Məhkəməsi tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar görülmüş işlərin təhlilinə dair keçirilmiş müşavirədə iştirak etmiş;

- Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Ali Məhkəmə və apellyasiya məhkəmələri ilə birgə layihəsi çərçivəsində Bələdiyyə serçkiləri ilə bağlı Gəncə Apellyasiya Məhkəməsində keçirilən seminarda Ali Məhkəməni təmsil etmişdir.

**İlqar Hüseynov -** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Ali Məhkəmə və apellyasiya məhkəmələri ilə birgə layihəsi çərçivəsində "Seçki mübahisələrinin məhkəmə qaydasında həlli" mövzusunda Bakı şəhərində keçirilən seminar-müşavirədə iştirak etmişdir.

**Cinayət kollegiyasının hakimləri** 2019-cu ildə tərəfindən ümimilikdə **162** əlavə kassasiya şikayətləri və yeni açılmış hallar üzrə ərizələrlə bağlı qərar layihələri hazırlanaraq Ali Məhkəmənin sədrinə təqdim olunmuş, Əfv komissiyasından daxil olmuş materiallar əsasında **1013** rəy hazırlanaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin əfv məsələləri üzrə sektoruna göndərilmişdir.

Bundan başqa, kollegiyanın hakimlərindən:

**Şahin Yusifov;**

**-**2019-cu ilin may ayından başlayaraq respublikanın 8 müxtəlif bölgələrində **88** nəfəri və Ali Məhkəmənin sədrinə ünvanlanmış ərizə və şikayətlərlə bağlı **47** nəfəri qəbul etmiş,

**-**vətəndaşlar, müxtəlif hökümət və qeyri-hökümət təşkilatlarından daxil olmuş **30** ərizə və sorğuya cavab verilmiş, çoxsaylı Qanun layihələrinə dair təkliflər hazırlanaraq müxtəlif qurumlara göndərilmiş,

-13-14 noyabr 2019-cu il tarixlərində Özbəkistan Respublikasının Daşkənd şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq və Şanxay Əməkdaşlıq Təşkilatlarının təşəbbüsü ilə

“İnsan alverinə qarşı mübarizədə məhkəmələrin müstəsna rolu” mövzusunda keçirilmiş beynəlxalq konfrasda iştirak etmiş;

**-TahirKazımov** Vəkillər Kollegiasının İxtisas Komissiyasının üzvü kimi vəkilliyə namizədlər üçün test və şifahi imtahanlarının keçirilməsində, onlarla fərdi söhbətlərin aparılmasında iştirak etmiş;

**-Hafiz Nasibov** 28 mart 2019-cu il tarixdə - Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1, 92.10.3 və 244.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair məsələyə baxılmasında ekspert qismində iştirak etmiş, həmçinin müxtəlif vaxtlarda Ədliyyə Akademiyasında hakimlər üçün təşkil edilmiş kurslarda “Azərbaycan Respublikasında Probasiya İstitutu” mövzusunda və “Məhkəməyədək icraatda həbs qətimkan tədbirinin seçilməsinə dair vəsatət və təqdimatlara baxılması və həbs qətimkan tədbirinin seçilməsinə dair məhkəmə qərarlarının əsaslandırılması” mövzusunda mühazirə demiş, müxtəlif vaxtlarda hakimliyə namizədlər üçün keçirilən test imtahanlarında, habelə yazılı və şifahi imtahanlarda Hakimlərin Seçki Komitəsinin üzvü kimi iştirak etmiş;

**-Fərhad Kərimov** 9 avqust 2019-cu il tarixdə Prokurorluq orqanlarına işə qəbulla bağlı keçirilən müsabiqənin test mərhələsində Ali Məhkəmənin nümayəndəsi kimi iştirak etmiş və 18 oktyabr 2019-cu il tarixdə “Korrupsiyaya qarşı mübarizədə milli və beynəlxalq mexanizmlər” mövzusunda ixtisasartırma kursunda “Korrupsiya cinayətlərinin tövsifi və həmin cinayətlərə məhkəmədə baxılmasının xüsusiyyətləri” mövzusunda mühazirə demiş;

Cinayət və Hərbi Kollegiyalarının bütün hakimləri 3 aprel 2019-cu il tarixli Fərmanın icrası ilə bağlı yaradılmış “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında”, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında”, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında”, “Məhkəmələr və Hakmlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi haqqında” Qanun layihələrinin, habelə Azərbaycan Respublikasının 20 oktyabr və 1 dekabr 2017-ci il tarixli Qanunlarına müvafiq olaraq “Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi Qərarlarına dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum Qərarının layihəsinin hazırlanmasında fəal iştirak etmişlər.

## *5. Ali Məhkəmənin Plenumu*

**2019-cu ildə** Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun **6** iclası keçirilmişdir.

**18 yanvar 2019-cu il tarixli** Plenum iclasında birinci instansiya məhkəməsinə yeni təyin olunmuş hakim Axundova Günay Təyyar qızının and içməsi keçirilmişdir. 2018-ci ilin I yarimilliyində respublikanın birinci və apellyasiya instansiya məhkəmələri tərəfindən təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlanılma müddətlərinin uzadılması haqqında təqdimatlara baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsinə dair nəticələr müzakirə edilmişdir. Azərbaycan Respublikası Ali Məhkəməsinin 2019-cu ilin I yarısına dair iş planı təsdiq edilmişdir.

**15 fevral 2019-cu il tarixli** Plenum iclasında Ali Məhkəmənin kollegiyalarının 2018-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsinə dair məlumatları nəzərə alınmışdır.

"Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərar layihəsi müzakirə edilmişdir.

**12 aprel 2019-cu il tarixli** Plenum iclasında 2016-2017-ci illərdə Azərbaycan Respublikası Məhkəmələrində hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi ilə bağlı mülki işlərə baxılmasına dair qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsinin nəticələri müzakirə edilmişdir. Konkret işlərə baxılmışdır.

**23 may 2019-cu il tarixli** Plenumun növbəti iclasında konkret işə baxılmışdır.

**12 iyul 2019-cu il tarixli** Plenumun növbəti iclasında konkret işlərə baxılmış, Ali Məhkəmənin 2019-cu ilin II yarısına dair iş planı təsdiq edilmişdir.

**15 noyabr 2019-cu il tarixli** Plenumun növbəti iclasında konkret işlərə baxılmış, Ali Məhkəmənin qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılmasına dair məhkəmə tərkibi yenidən təşkil olunmuşdur.

Konstitusiya Məhkəməsinin qərarına əsasən **12** mülki iş daxil olmuşdur. Onlardan **9** işə baxılmışdır. **3** iş isə 2020-ci ilə keçmişdir. **7** iş üzrə qərar ləğv edilərək apellyasiya baxışına göndərilmiş, **2** qərardad isə ləğv edilərək Ali Məhkəmənin Mülki kollegiyasına göndərilmişdir.

Sədrin təqdimatı ilə **3** mülki işə baxılmışdır. Onlardan **2** iş üzrə təqdimat təmin edilmiş, qərar ləğv edilərək apellyasiya məhkəməsinə göndərilmişdir. 1 iş üzrə isə təqdimat təmin edilməmişdir.

Yeni açılmış hallar üzrə isə **4** mülki mübahisə üzrə işə baxılmış, ərizə təmin edilmiş, qərar ləğv edilərək birinci instansiya məhkəməsinə göndərilmişdir.

Əlavə kassasiya şikayəti üzrə **2** mülki işə baxılmış,kassasiya şikayəti təmin edilmiş, qərar ləğv edilərək yeni apellyasiya baxışına göndərilmişdir.

Konstitusiya Məhkəməsinin qərarına əsasən **1** iqtisadi iş daxil olmuş, qərardad ləğv edilərək iş Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasına göndərilmişdir.

Əlavə kassasiya şikayəti üzrə **2** iqtisadi işə baxılmış, kassasiya şikayəti təmin edilmiş, qərar ləğv edilərək yeni apellyasiya baxışına göndərilmişdir.

***2019-c ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda Ali Məhkəmə hakimlərinin məruzəsi və sədrliyi ilə baxılmış işlər üzrə qərarların ləğv edilməsi və dəyişdirilməsi barədə***

## M Ə L U M A T

| № | Hakimlər | Əlavə kassasiya şikayətinə (protestinə) əsasən | Yeni açılmış hallar üzrə | Təqdimata əsasən | Konstitusiya Məhkəməsinin qərarlarına əsasən | Avropa Məhkəməsinin qərarına əsasən | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | **Mülki işlər** | | | | | | |
| 1 | **Qürbət Əsgərov** | | | | 1 | | 1 |
| 2 | **Sənan Hacıyev** | | | | 4 | | 4 |
| 3 | **Elşanə Vəliyeva** | | | | 3 | | 3 |
| 4 | **İlqar Dəmirov** | 2 | | | 1 | | 3 |
| 5 | **Vəfaddin İbayev** | | | 1 | | | 1 |
| 6 | **Ələsgər Əliyev** | | 1 | 1 | | | 2 |
| 7 | **Gündüz Quliyev** | | | 1 | | | 1 |
| 8 | **Kəmaləddin Bədəlov** | | 1 | | | | 1 |
| 9 | **Əhməd Nurməmmədov** | | 2 | | | | 2 |
| | **İqtisadi mübahisələrə dair işlər** | | | | | | |
| 1 | **Xaqani Məmmədov** | | | | 1 | | 1 |
| 2 | **İlqar Dadaşov** | 2 | | | | | 2 |
| | **Cəmi** | 4 | 4 | 3 | 10 | | 21 |

## Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi

Ali Məhkəmənin fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını həyata keçirmək üçün məhkəmə Aparatı və İşlər İdarəsi fəaliyyət göstərir.

Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi öz səlahiyyətlərinə görə birinci kateqoriya dövlət orqanının məhkəmə aparatıdır, inzibati və yardımçı vəzifə tutan dövlət qulluqçularından ibarətdir.

«Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə ölkəmizin məhkəmə sisteminin inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır.

Ali Məhkəmənin və bütövlükdə məhkəmə sisteminin informasiya sisteminin yaradılması və təkmilləşdirilməsi vahid razılaşdırılmış prinsiplər əsasında qurulmuş, Ali Məhkəmə rəhbərliyinin, aparatı və hakimlərin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi keyfiyyətcə yeni mərhələyə keçidin əsasını qoymuşdur.

Ali Məhkəmədə İnformasiya texnologiyalarının tətbiqi sahəsində əsas məqsəd hakimlərin və məhkəmə aparatının fəaliyyətinin müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə müasirləşdirilməsi və prinsipcə yeni formaya keçməsi ilə məhkəmənin fəaliyyətinin səmərəliliyinin artırılmasını təşkil edir.

Bu isə «Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı və Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan) yerinə yetirilməsi ilə birbaşa bağlıdır.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cu il tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamı Azərbaycan Respublikasının məhkəmə sisteminin inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

Bu sərəncamın 2-ci bəndində nəzərdə tutulan işlərin yerinə yetirilməsi məhkəmə sistemində müasir informasiya texnologiyalarının tətbiqində növbəti-elektron mərhələsinə keçidi təmin edəcəkdir.

Bu sərəncamın yerinə yetirilməsi nəticəsində Azərbaycanda

-"Elektron məhkəmə" portalının yaradılması;

-"Elektron məhkəmə" portalı ilə Ali Məhkəmənin, Apellyasiya və 1-ci instansiya məhkəmələrinin məhkəmə işlərinin işlənməsi sistemləri ilə qarşılıqlı mübadiləsinin təmin olunması;

-"Elektron məhkəmə" sistemi ilə "ASAN" xidmət və "Elektron hökumət" portalları arasında qarşılıqlı mübadilənin təmin olunması nəzərdə tutulur.

Bu da məhkəmə sistemində aşağıdakı işlərin yerinə yetirilməsini nəzərdə tutur:

- mühakimə üsulunun təkmilləşdirilməsi və ədalət mühakiməsinin daha da əlyetərli olmasının təmin olunması;

- hakimlərin və məhkəmə aparatının fəaliyyətinin effektivliyinin artırılması;

- məhkəmə sisteminin informasiya fazasında eyniliyinin təmin olunması;

-əhali və təşkilatlar üçün məhkəmələrə müraciətin asanlaşdırılması, aşkarlığın təmin olunması, məhkəmələrə getmədən internet vasitəsi ilə şikayətlərin verilməsi və işlərin gedişi barədə məlumatların operativ alınması;

- məhkəmənin gedişinin internet vasitəsi ilə müşahidə etmənin təmin olunması.

Qeyd olunan vəzifələrin yerinə yetirilməsi məqsədi ilə Ali Məhkəmədə bir sıra işlər həyata keçirilir:

- məhkəmə işlərinin, vətəndaşların və təşkilatların ərizə və şikayətlərinin baxılma müddətinin müasir informasiya-kommunikasiya texnologiyalarının – internet, elektron sənəd dövriyyəsi, böyük həcmli məlumatların işlənməsi və saxlanması, video-konfrans əlaqə və s. texnologiyaların kompleks şəkildə tətbiqi vasitəsi ilə qısaldılması;

- məhkəmədə kargüzarlığın və məhkəmə statistikası məlumatlarının keyfiyyətinin artırılması;

- Ali Məhkəmənin digər instansiya məhkəmələri, Respublika Prokurorluğu, Ədliyyə Nazirliyi və digər dövlət idarəetmə orqanları ilə məlumat mübadiləsinin operativliyinin artırılması;

- Qərarların qəbul edilməsi üçün müasir analitik metodların tətbiqi vasitəsi ilə Ali Məhkəmənin fəaliyyətinin bütün sahələrində administrativ-idarəetmə proseslərinin məlumat təminatının keyfiyyətinin yüksəldilməsi;

- Ali Məhkəmənin avtomatlaşdırılmış məlumat sisteminin təhlükəsizliyinin kompleks şəkildə təmin olunması;

- Avtomatlaşdırılmış idarəetmə sisteminin qarşısında qoyulmuş tələblərə uyğun olaraq informasiya vasitələrinin etibarlılığının və səmərəliliyinin kompleks şəkildə artırılması, təkmilləşdirilməsi və informasiya-kommunikasiya vasitələrinin inkişaf etdirilməsi üçün maddi-texniki və maliyyə təminatının olması;

- müasir informasiya texnologiyalarının tətbiqi sahəsində effektivliyin artırılması məqsədi ilə hakimlərin və məhkəmə aparatı işçilərinin ixtisasının artırılması;

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nda (Elektron Azərbaycan) və Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cu il tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamının 2-ci bəndində nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi, "Elektron məhkəmə" sisteminin yaradılması, "Ali Məhkəmənin "Elektron kargüzarlıq və sənəd dövriyyəsi" sisteminin təkmilləşdirilməsi, daha müasir texnologiyaların tətbiqi ilə beynəlxalq standartlara uyğunlaşdırılması"

bəndinin yerinə yetirilməsi məqsədi ilə informasiya texnologiyalarının tətbiqi sahəsində müəyyən işlər yerinə yetirilmiş və 2014-2016-ci illərdə yerinə yetiriləcək işlərin planı hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cu il tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamının yerinə yetirilməsi məqsədi ilə 14 fevral 2014-cü il tarixdə Ali Məhkəmədə 13 nəfərdən ibarət xüsusi işçi qrupu yaradılmışdır.

İşçi qrup "Elektron məhkəmə" sisteminin yaradılması məqsədi ilə tədbirlər planı, yerinə yetiriləcək işləri əhatə edən ilkin layihə hazırlamış və maliyyə üçün təkliflər vermişdir.

Layihə çərçivəsində Ali Məhkəmənin mövcud texniki və proqram təminatının mövcud "Elektron sənəd dövriyyəsi sistemində istifadəçilərin işinin yüngülləşdirilməsi və sənədlərin işlənməsini sürətləndirmək məqsədi ilə müəyyən dəyişikliklər edilmiş, işlərin yerinə yetirilməsinə nəzarəti təmin etmək üçün xüsusi daxili axtarış-nəzarət sistemi təkmilləşdirilmiş, "İnternet portal www.supremecourt.gov.az"-da "E-Xidmətlər" bölməsinə dəyişikliklər və yeni bəndlər, "Təhlil və statistika sistemi"nə yeni alətlər və statistik formalar əlavə edilmiş, yeni nəzarət sistemi yaradılmış, işlərin avtomatik bölgüsünün aparılması üçün xüsusi proqram hazırlanmış, Ali Məhkəmənin kadrlar sektoru üçün xüsusi proqram kompleksində dəyişikliklər edilmiş, mühasibat uçotu proqram təminatında qanunvericiliyə uyğun dəyişikliklər edilmişdir.

"Elektron məhkəmə" sisteminin yaradılması və Ali Məhkəmənin informasiya sisteminin yenilənməsi, məhkəməyə daxil olan işlərin elektron formada işlənməsi üçün proqram-texniki kompleksin yaradılması, fiziki və hüquqi şəxslərin məhkəmələrə müraciətlərinin, iddia ərizələrinin, müxtəlif məhkəmə instansiyalarına şikayətlərin elektron formada təqdim edilməsi üçün xüsusi sistemin yaradılması ilə bağlı prosessual qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflər verilmişdir.

Ali Məhkəmə Aparatının strukturunda müvafiq dəyişikliklər edildikdən sonra Aparat və İşlər İdarəsi 2019-cu ildə aşağıdakı tərkibdə fəaliyyət göstərmişdir :

**Ali Məhkəmənin Aparatı:**

1.Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
2.Beynəlxalq əlaqələr şöbəsi
3.Qanunvericiliyin təhlili və sistemləşdirilməsi şöbəsi
4.Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi
5.İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi
6.Dövlət qulluğu və kadr məsələləri sektoru
7.İcra şöbəsi
8.Ali Məhkəmə Plenumunun katibliyi
9.Mülki kollegiyanın katibliyi
10.Inzibati-İqtisadi kollegiyanın katibliyi

11.Cinayət kollegiyasının katibliyi
12.Hərbi kollegiyanın katiblyi

**Ali Məhkəmənin İşlər İdarəsi:**

1.İnformasiya Texnologiyaları şöbəsi
2.Maliyyə-Təsərrüfat şöbəsi
3.Ali Məhkəmənin Xatirə Muzeyi
4.Kitabxana
5.Arxiv
6.Ali Məhkəmənin mətbəəsi

Azərbaycan Respublikası Ali Məhkəməsi milli qanunvericiliyin və İnsan Hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq hüquq normalarının məhkəmələr tərəfindən tətbiqinin vahid təcrübəsinin yaradılmasını təmin etmək məqsədi ilə öz səlahiyyətləri çərçivəsində mütəmadi olaraq tədbirlər həyata keçirir. Bu məqsədlə ayrı-ayrı sahələr üzrə məhkəmələr tərəfindən baxılan işlər öyrənilərək ümumiləşdirilir, bu növ işlərə baxılarkən yol verilmiş nöqsanlar və qanun pozuntuları aşkar edildikdə ümumiləşdirmənin nəticələri Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda hakimlərin iştirakı ilə müzakirə olunur.

Belə ki, 2019-cu ildə **Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin** əməkdaşları tərəfindən "2016-2017-ci illərdə Azərbaycan Respublikasının birinci instansiya məhkəmələrində hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi ilə bağlı işlərə baxılmasına dair qanunvericiliyin tətbiqi təcrübəsi ümumiləşdirilmiş, nəticəsi Ali Məhkəmənin **12 aprel 2019-ci il tarixli** Plenum iclasında müzakirə edilmiş edilərək müvafiq qərar qəbul edilmiş, aşkar edilmiş qanun pozuntuları və nöqsanlarla bağlı birinci və apellyasiya instansiyası məhkəmələrinə icmal məktub göndərilmişdir

Bundan başqa, "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 10 fevral 2017-ci il tarixli Sərəncamının 13-cü bəndinin icrasını təmin etmək məqsədi ilə 2018-ci ildə Azərbaycan Respublikasının birinci instansiya məhkəmələri tərəfindən təqsirləndirilən şəxslər barəsində ev dustaqlığı və girov qismindəi qətrimkan tədbiri seçilməsi və ev dustaqlığında saxlanılma müddətinin uzadılması ilə bağlı təqdimatlara baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsi ümumiləşdirilmiş və nəticəsi 13 dekabr 2019-cu il tarixdə Ali Məhkəmənin rəhbərliyi yanında geniş müzakirə edilmiş, ümumiləşdirilmə zamanı aşkar edilmiş qanun pozuntuları və nöqsanlar barədə birinci və apellyasiya instansiyası məhkəmələrinə icmal məktubu göndərilmişdir

Bundan əlavə, şöbənin əməkdaşları tərfindən 2019-cu ilin birinci yarımilliyində Azərbaycan Respublikasının birinci instansiya məhkəmələri tərəfindən təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbiri seçilməsi və həbsdə saxlanılma müddətinin uzadılması ilə bağlı təqdimatlara baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsi ümumiləşdirilmiş və nəticəsi 18 yanva 2019-cu il tarixdə Ali Məhkəmənin Plenumunda müzakirə edilmiş nəticəsi ilə bağlı müvafiq qərar qəbul edilməsi üçün işçi qrupu yaradılmışdır

Eləcə də, şöbənin əməkdaşları tərəfindən Sumqayıt Apellyasiya Məhkəməsində 2018-cı ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti ümumiləşdirilmiş, Ali Məhkəmənin rəhbərliyinnin bir sıra göstəriş və tapşırıqları yerinə yetirilmişdir.

**Qanunvericiliyin təhlili və sistemləşdirilməsi şöbəsinin** əməkdaşları tərəfindən 2019-cu ildə şöbənin əsas funksional təyinatından irəli gələn təhlil işinin həyata keçirilməsi, şöbəyə daxil olan hüquqi aktların (normativ hüquqi aktlar, normativ xarakterli aktlar, qeyri-normativ aktlar və s.), o cümlədən onlara edilmiş əlavə və dəyişikliklərin sistemləşdirilməsi və kodifikasiyası (nəzarətdə olan qanunvericilik aktları) təmin edilmişdir.

Azərbaycan Respublikası qanunvericilik sistemində məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı, öyrənilməsi zəruri olan, yeni qəbul edilən və baş verən dəyişikliklərə dair 40-dan çox hüquqi akt və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qanunlarının şərhi ilə bağlı 10-dan çox qərarı Ali Məhkəmənin hakimlərinə və Aparatın işçilərinə elektron qaydada (daxili poçt sistemi vasitəsilə) göndərilmişdir.

Şöbəyə daxil olan 161 məktub araşdırılmış, məzmunundan asılı olaraq hüquqi aktların, onlara əlavə edilmiş layihələrin və digər məsələlərin öyrənilməsi həyata keçirilmiş və 150-dən çox məktuba rəy və təkliflər hazırlanaraq müvafiq sorğu edən dövlət orqanlarına göndərilmişdir

Ali Məhkəmənin Bülletenində məhkəmələrin fəaliyyəti ilə bağlı olan Azərbaycan Respublikasının Qanunları, Azərbaycan Respublikası Milli Məclisinin Qərarları, Azərbaycan Respublikası Prezidentinin aktları, Ali Məhkəmə Plenumunun qərarları, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair ümumiləşdirmələrin nəticələri, icmal məktubları və məhkəmə fəaliyyəti ilə bağlı əhəmiyyət kəsb edən digər məlumatlar şöbə tərəfindən toplanaraq, texniki baxımdan işlənərək Ali Məhkəmənin mətbəəsinə təqdim edilmiş və vaxtında çap edilməsinə nəzarət həyata keçirilmişdir.

Hüquqi aktların Qanunvericiliyin təhlili və sistemləşdirilməsi şöbəsi tərəfindən sistemləşdirilməsi ilə əlaqədar olaraq Ali Məhkəmənin kollegiya sədrlərinin, hakimlərinin, Aparatın rəhbərliyinin və struktur bölmələrinin əməkdaşlarının 20-dən çox müraciəti təmin edilmişdir.

Avropa Şurasının “Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək” layihəsinin icrası məqsədilə, Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü, 5-ci və 6-cı maddələrinin tələbləri nəzərə alınmaqla, beynəlxalq təcrübə və ölkədaxili qanunvericilik təhlil edilərək, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 61 maddəsi üzrə və Cinayət Məcəlləsinin 1 maddəsi üzrə dəyişikliklər

edilməsi haqqında qanun layihəsi, Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli, 2668 nömrəli Fərmanı ilə Ali Məhkəməyə verilmiş tövsiyələrin icrasının təmin etmək məqsədilə cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin icrası istiqamətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Xüsusi hissəsinin 706 hüquq norması öyrənilərək, 20 maddə üzrə beynəlxalq təcrübə və ölkədaxili qanunvericilik geniş təhlil edilmiş, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanunundan irəli gələn tələblərə uyğun olaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihəsi, layihənin qəbul olunması zərurətinin əsaslandırılması, məcburi-hüquqi ekspertiza rəyi, müqayisəli cədvəl, arayış və layihəni tərtib etmiş şəxslərin siyahısı hazırlanaraq Ali Məhkəmənin Cinayət Kollegiyasına təqdim edilmişdir. Belə ki, hazırlanmış layihədə Cinayət Məcəlləsinin 13 maddəsi üzrə cinayət əməli üçün nəzərdə tutulan cəza hədləri və ya növləri humanistləşdirilərək azaldılmış və ya ləğv edilmiş, 7 maddə üzrə isə cinayət əməli dekriminallaşdırılmışdır.

Bununla başqa, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 03 aprel 2019-cu il tarixli, 604 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Ali Məhkəmənin hakimləri və şöbənin əməkdaşlarından, həmçinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Baş Prokurorluğu və digər orqanların əməkdaşlarından ibarət komissiya təşkil edilmiş və Azərbaycan Respublikası Cinayət Məcəlləsi, Cinayət Prosessual Məcəlləsi və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi ilə bağlı qanun layihələri hazırlanaraq, münasibət bildirilməsi üçün aidiyyəti orqanlara təqdim edilmişdir.

Həmin Fərmanın 3-cü abzasının - ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi üçün hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılmasının və 3.4-cü bəndinin - hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılmasının təmin edilməsi üçün "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi haqqında", "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikası Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihələri və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanına dəyişiklik edilməsi barədə" fərman layihəsi, layihələrə dair müqayisəli cədvəllər, layihələrin qəbul edilməsinin zəruri əsaslandırmaları, məcburi hüquqi ekspertiza rəyləri və hazırlayan şəxslərin siyahısı və "Azərbaycan Respublikasının Ali Məhkəməsi hakimlərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 19 oktyabr 2010-cu il tarixli, 1160 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" və "Azərbaycan Respublikası Milli Məclisində işləyən dövlət qulluqçularının

sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 27 dekabr 2018-ci il tarixli, 855 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" sərəncam layihələri hazırlanaraq müvafiq Kollegiyalara təqdim edilmişdir.

Fərmanın 3.1-ci bəndində nəzərdə tutulan sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşdırılmış məhkəmələrin təşkil edilməsi ilə bağlı Avropa Şurasına üzv olan 48 dövlətin məhkəmə sistemi ilə bağlı araşdırma aparılmışdır. İxtisaslaşdırılmış məhkəmələri olan dövlətlərin məhkəmə sistemi daha dərindən təhlil edilmiş və yekun arayış hazırlanaraq, Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasına təqdim edilmişdir. Həmin Kollegiyanın təkliflərinə uyğun olaraq, "Azərbaycan Respublikası Mülki Prosessual və İnzibati Prosessual Məcəllələrinə dəyişiklik edilməsi haqqında" qanun layihəsi, layihənin qəbul olunması zərurətinin əsaslandırılması, məcburi-hüquqi ekspertiza rəyi, müqayisəli cədvəl və layihəni tərtib etmiş şəxslərin siyahısı hazırlanaraq həmin Kollegiyaya təqdim edilmişdir.

Fərmanın 3.3-cü bəndində nəzərdə tutulan hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması ilə bağlı beynəlxalq təcrübə və ölkədaxili qanunvericilik geniş təhlil edilərək, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında", "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" qanun layihələri, müqayisəli cədvəllər və təhlili arayış hazırlanaraq, Ali Məhkəmənin Cinayət Kollegiyasına təqdim olunmuşdur.

Fərmanın 4-cü bəndini - mülki prosessual qanunvericiliyin kompleks şəkildə təhlil edilərək bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, təkmilləşdirilməsi işini icra etmək məqsədilə Azərbaycan Respublikası Apelyasiya və birinci instansiyası məhkəmələrinin, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının və Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin təklifləri təhlil edilmiş, Ali Məhkəmənin Mülki və İnzibati-iqtisadi Kollegiyaları ilə razılaşdırmaqla "Mülki Prosessual Məcəlləsinə dəyişiklik edilməsi haqqında" qanun layihəsi və müqayisəli cədvəl hazırlanaraq müvafiq Kollegiyalara təqdim edilmişdir.

Fərmanın 6-cı bəndinin - məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması, ədalət mühakiməsinin keyfiyyətinin artırılması üçün məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi sahəsində fəaliyyətin gücləndirilməsi, həmçinin məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində müəyyən edilmiş, sistemli xarakter daşıyan nöqsanların aradan qaldırılması üçün müvafiq mexanizm yaradılmasının təmin edilməsi məqsədilə Ali Məhkəmənin Cinayət Kollegiyası tərəfindən hazırlanmış təkliflər əsasında

“Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinə dəyişikliklər edilməsi haqqında” və “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi haqqında” qanun layihələri tərtib edilərək, həmin Kollegiyaya təqdim edilmişdir.Fərmanın 3.8-ci və 7.4-cü bəndlərində qeyd olunan mülki işlər, habelə inzibati xətalara, iqtisadi və inzibati mübahisələrə dair işlər üzrə məhkəmə ekspertizasının keçirilməsi və ekspert rəyinin verilməsi müddətlərinin dəqiqləşdirilməsi, məhkəmə prosesi tərəflərinin ekspertiza təyin edilməsi ilə bağlı hüquqlarının genişləndirilməsi, məhkəmə ekspertizası fəaliyyətinin alternativ mexanizmləri, o cümlədən ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsi ilə bağlı beynəlxalq təcrübə və ölkədaxili qanunvericilik araşdırılmış, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış qanun layihələri təhlil edilmiş və müvafiq təkliflər hazırlanaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə təqdim edilmişdir.

Ali Məhkəmə Sədrinin tapşırığına əsasən iddia müddətləri ilə bağlı Avropa Şurasına üzv olan 47 dövlətin və MDB-yə daxil olan dövlətlərin müvafiq qanunvericilik aktları təhlil edilərək arayış və cədvəl tərtib edilmişdir.

**İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin** əməkdaşları ötən illərdə olduğu kimi 2019-ci il ərzində də yanvar ayından başlayaraq hər həftənin ikinci günü “İnsan hüquqları üzrə Avropa Məhkəməsinin” təcrübəsinin öyrənilməsi məqsədilə seminar-məşğələlərin təşkil edilməsi, Azərbaycan üçün aktual olan İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarından Ali Məhkəmənin müvafiq kollegiya sədrləri və hakimləri ilə razılaşdırılaraq mövzuların seçilməsi, seçilmiş qərarlar üzrə seminar-məşğələ cədvəllərinin tərtib edilməsi şöbənin əməkdaşları tərəfindən təmin edilmişdir. Məruzə edilmiş qərarların surətlərinin Respublikanın apellyasiya və birinci instansiya məhkəmələrinə göndərilməsi həyata keçirilmiş və həmin qərarların Ali Məhkəmənin internet səhifəsində “Avropa Məhkəməsinin qərarları” bölməsində yerləşdirilməsi təmin edilmişdir.

Avropa Məhkəməsinin bir sıra qərarları Azərbaycan dilinə tərcümə edilərək hakimlərə təqdim edilmişdir.

2019-cu il ərzində Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən qəbul edilmiş qərarlar daim izlənilərək, yeniliklər və Azərbaycana qarşı qəbul edilmiş qərarlar barədə Ali məhkəmənin hakimlərinə və əməkdaşlarına mütəmadi olaraq məlumat verilmişdir.

Bundan başqa, Ali Məhkəmə tərəfindən tərcümə edilmiş Avropa İnsan Hüquqları Məhkəməsinin 12 qərarı HUDOC bazasına yerləşdirilmişdir.

Bundan əlavə Ali Məhkəmənin hakimlərinin icraatında olan işlərlə əlaqədar Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq presedentlərinin tapılması, onların tərcümə olunması və hakimlərə təqdim olunması İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi tərəfindən təşkil edilmişdir.

Aidiyyəti müraciətlərə, o cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından kommunikasiyada olan işlərlə əlaqədar daxil olmuş sorğulara, cavablar hazırlanmışdır. Ümumilikdə Avropa Məhkəməsinə ünvanlanmış 16 ərizə üzrə suallar cavablandırılmışdır.

Avropa İnsan Hüquqları Məhkəməsinin “Yuxarı Məhkəmələr Şəbəkəsi” ilə əməkdaşlıq çərçivəsində şöbənin müdiri K.Əliyeva və şöbənin böyük məsləhətçisi N.Ocaqverdiyeva 6-7 iyun 2019-cu il tarixində Şəbəkənin 3-cü Forumunda iştirak etmişlər. Şəbəkənin milli qanunvericiliklə bağlı 5 sorğularına cavab verilmişdir

Həmçinin, 27 aprel 2019-cu il tarixində Azərbaycan Respublikasının Ali Məhkəməsində Avropa İnsan Hüquqları Konvensiyanın 8-ci maddəsi ilə qorunan şəxsi həyata hörmət və ailə hüququnun aspektlərinin və müxtəlif kateqoriyalı işlər üzrə uşağın üstün maraqlarının nəzərə alınmasına dair Avropa Məhkəməsinin təcrübəsinin milli məhkəmələr tərəfindən səmərəli tətbiq edilməsi məqsədi ilə Bakı yurisdiksiyasına daxil olan məhkəmələrin hakimləri, icra hakimiyyətinin nümayəndələri, eləcə də Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin nümayəndələrinin iştirakı ilə seminar keçirilmişdir. Seminara dair bütün materiallar şöbənin müvafiq əməkdaşları tərəfindən tərcümə edilərək tərtib edilmişdir.

Bundan başqa, 28 noyabr 2019-cu il tarixdə Avropa Şurasının təşkilatşılığı ilə Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi L.Hüseynov, Ali Məhkəmə və Konstitusiya Məhkəməsinin hakimlərinin iştirakları ilə Azərbaycan Respublikası Ali Məhkəməsində “Azərbaycanda ədliyyə sisteminin təkmilləşdirilməsi və onun İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna uyğunlaşdırılması” mövzusunda konfrans keçirilmişdir.

Bundan əlavə şöbənin əməkdaşları Əsasnamədə nəzərdə tutulmuş funksiyalarının icrasından başqa digər vəzifələrin və tapşırıqların yerinə yetirilməsinə də cəlb olunmuşlar, o cümlədən rəhbərliyin tapşırığı müxtəlif təhlillər aparmışlar.

**Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinə** 2019-cu ildə Respublikanın təşkilatlarından və vətəndaşlardan **32380 müraciət** (kassasiya şikayəti, kassasiya protesti, əlavə kassasiya şikayəti, ərizə, şikayət və sair) daxil olmuşdur. 2019-cu ildə daxil olmuş müraciətlərin sayı 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə **6844 (26,8%)** müraciət artmışdır.

Respublikanın təşkilatlarından və vətəndaşlardan daxil olmuş 9996 müraciət (32380 müraciətə aid edilməklə) prosessual sənədlər olduğu üçün (kassasiya şikayəti, kassasiya protesti, kassasiya şikayətinə etiraz, kassasiya şikayətinə əlavə, vəsatət, izahat və sair) icraatda olan işlərə əlavə edilmiş, 658 prosessual müraciət (əlavə kassasiya qaydasında şikayət, protest, məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizə və sair) plenumun icraatı qaydasında baxılmışdır. Digər 21726 müraciətə isə Ali Məhkəmənin rəhbərliyi və aparatı tərəfindən baxılmışdır.

Ali Məhkəmə Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin rəhbərliyi və məsləhətçiləri tərəfindən həftənin bütün iş günləri saat 09:00-dan 18:00-dək vətəndaşların qəbulu həyata

keçirilir. 2019-cu ildə şöbənin rəhbərliyi və məsləhətçiləri tərəfindən 1514 nəfər qəbul olunmuş, şikayətləri dinlənilmiş və onlara müraciət etmə qaydaları və digər hüquqları izah olunmuşdur.

Ali Məhkəmənin sədri və kollegiya sədrlərinin qəbulu təsdiq olunmuş cədvəl üzrə müəyyən olunmuş günlərdə və saatlarda aparılmışdır. Qəbul barədə ətraflı məlumat məhkəmənin internet səhifəsində (azərbaycan, rus və ingilis dillərində) yerləşdirilmişdir

2019-cu ilin aprel ayından başlayaraq Ali Məhkəmənin sədri və kollegiya sədrləri tərəfindən şəhər və rayonlarda vətəndaşların səyyar qəbulu keçirilmişdir

Məlumatın əhatə etdiyi dövr ərzində Ali Məhkəmənin sədri və kollegiya sədrləri tərəfindən 977 nəfər qəbul olunmuş, o cümlədən:

-Ali Məhkəmənin sədri tərəfindən 612 nəfər, o cümlədən 395 nəfər bölgələrdə;

-Cinayət kollegiyasının sədri tərəfindən 139 nəfər, o cümlədən 66 nəfər bölgələrdə ;

-İnzibati-İqtisadi kollegiyanın sədri tərəfindən 118 nəfər, o cümlədən 66 nəfər bölgələrdə;

-Mülki kollegiyanın sədri tərəfindən 72 nəfər;

-Hərbi kollegiyanın sədri tərəfindən 36 nəfər qəbul edilmişdir.

# Ali Məhkəmənin 2019-cu ildə beynəlxalq əlaqələri.

Azərbaycan Respublikası Ali Məhkəməsinin iki tərəfli beynəlxalq əlaqələrin genişləndirilməsinə mühüm diqqət yetirməsini nəzərə alaraq hüquqi əməkdaşlığın dərinlənməsi istiqamətində səmərəli addımlar atılmış və bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bununla əlaqədar olaraq şöbənin əməkdaşları 2019-cu ilin

**-yanvar ayının 25-də** Ali Məhkəmənin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti Fransanın Strasburq şəhərində Avropa İnsan Hüquqları Məhkəməsinin məhkəmə ilinin açılışına həsr olunmuş təntənəli tədbirdə və “Məhkəmə hakimiyyətinin etimadının gücləndirilməsi” mövzusunda keçirilən iclasda iştirak etmiş;

**-yanvar ayının 27-31-də** Azərbaycanın Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri Ramiz Rzayev və Ədliyyə Nazirliyinin məsul şəxslərindən ibarət nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığı ədliyyə nazirinin dəvətinə əsasən həmin ölkədə səfərdə olmuşlar.

Səfər çərçivəsində iki ölkənin nazirlikləri arasında ədliyyə və məhkəmə sistemlərinin müasirləşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, elektron ədliyyə, elektron məhkəmə, ədliyyə işçilərinin və hakimlərin tədrisi və digər sahələrdə birgə tədbirlərin keçirilməsini nəzərdə tutan əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır.

**-aprel ayının 3-5-də** Ali Məhkəmənin hakimi Xəqani Məmmədov Litvada keçirilən “elektron icra” və “elektron məhkəmə” sistemlərinin təkmilləşdirilməsi ilə bağlı tədbirdə iştirak etmiş;

**-aprelin 10-13-də** Ali Məhkəmənin hakimi Qürbət Əsgərov Qazaxıstan Respublikasının Aktau şəhərində “Müasir cəmiyyətdə mənəvi əhəmiyyətə və hüquqi ənənələrə malik olan türkdilli xalqların ümumi dəyərləri” mövzusunda keçirilən konfransda iştirak etmiş;

**-aprelin 27-də** Azərbaycan Respublikasının Ali Məhkəməsində Avropa İnsan Hüquqları Konvensiyanın 8-ci maddəsi ilə qorunan şəxsi həyata hörmət və ailə hüququnun aspektlərinin və müxtəlif kateqoriyalı işlər üzrə uşağın üstün maraqlarının nəzərə alınmasına dair seminar keçirilmiş;

**-mayın 6-da** Azərbaycanın Avropa Şurasına (AŞ) üzv qəbul olunduqdan sonra üzərinə götürdüyü öhdəliklərin icrası vəziyyətini öyrənmək məqsədilə ölkəmizdə səfərdə olan AŞ katibliyinin Siyasi məsələlər direktorluğunun rəhbəri Aleksandr Qesselin rəhbərlik etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayev ilə görüşmüşdür.

**-may ayının 7-12-də** Ali Məhkəmənin hakimi Sənan Hacıyev AHA-nın növbəti yaz iclasında iştirak etmək üçün Danimarkanın Kopenhagen şəhərində səfərdə olmuşdur.

**-may ayının 14-də** Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tong Op Kim Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**-may ayının 27-29-da** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti Slovakiya Respublikasının paytaxtı Bratislava şəhərində keçirilən Mərkəzi və Şərqi Avropa ölkələrinin Ali Məhkəmə sədrlərinin 9-cu Konfransında iştirak etmişdir.

**-iyun ayının 6-7-də** Fransanın Strasburq şəhərində Yuxarı Məhkəmələr Şəbəkəsinin Əlaqələndirici şəxslərin 3-cü Forumunda İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Kəmalə Əliyeva və həmin şöbənin böyük məsləhətçisi Nərgiz Ocaqverdiyeva iştirak etmişlər.

**-iyun ayının 23-27-də** Ali Məhkəmənin Hərbi kollegiyasının sədri Əziz Seyidov Monteneqronun Budva şəhərində "Beynəlxalq Terrorizm və Qanunsuz Miqrasiya" mövzusunda keçirilən konfransda iştirak etmişdir.

**-iyulun 10-da** ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı Dunya Miyatoviç Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**-iyulun 16-da** ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Məhəmməd Əl-Səmaaninin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**-sentyabr ayının 5-də** ölkəmizdə səfərdə olan AŞPA-nın Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin sədri, İslandiya Parlamentinin üzvü xanım Sunna Thorhildur Evarsdottirin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin Cinayət kollegiyasının sədri Şahin Yusifovla görüşmüşdür.

**-sentyabr ayının 11-də** ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktoratlığının rəhbəri cənab Xristos Cakoumoulosun başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasının sədri Hikmət Mirzəyev və Cinayət kollegiyasının sədri Şahin Yusifovla görüşmüşlər.

-**sentyabr ayının 12-13 tarixlərində** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti Parisdə keçirilən Avropa Şurasına üzv dövlətlərin Ali Məhkəmə sədrlərinin konfransında iştirak etmişdir.

**-sentyabr ayının 15-19-da** Ali Məhkəmənin hakimi Sənan Hacıyev Beynəlxalq Hakimlər Assosiasiyasının təşkil etdiyi tədbirdə iştirak etmək üçün Qazaxıstan Respublikasının Nur-Sultan şəhərində səfərdə olmuşdur.

**-sentyabr ayının 18-də** ölkəmizdə səfərdə olan Britaniya Yəhudilər Şurasının nümayəndələri Ali Məhkəmənin hakimi Tatyana Qoldmanla görüşmüşlər

**-sentyabr ayının 19-da** ölkəmizdə səfərdə olan ABŞ Dövlət Departamentinin İnsan Alverinin Monitorinqi və Mübarizəsi üzrə ofisinin əməkdaşı cənab Atsuki Takahaşinin rəhbərlik etdiyi nümayəndə heyəti Ali Məhkəmənin Hərbi kollegiyasının sədri Əziz Seyidovla görüşmüşdür.

**-oktyabr ayının 16-da** ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Hakimlər və Prokurorlar Şurasının dairə rəhbəri Halil Koçun rəhbərlik etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**-oktyabr ayının 20-23-də** Ali Məhkəmənin hakimi Xəqani Məmmədov Mərakeş Beynəlxalq Ədliyyə Konfransında iştirak etmək üçün Mərakeş Krallığında səfərdə olmuşdur.

**-noyabr ayının 5-8-də** Ali Məhkəmənin hakimi Xəqani Məmmədov "Hakim köməkçilərinin rolu" mövzusunda keçirilən tədbirdə iştirak etmək üçün Fransanın Strasburq şəhərində səfərdə olmuşdur.

**-noyabr ayının 12-15-də** Ali Məhkəmənin Hərbi kollegiyasının sədri Əziz Seyidov "İnsan Alverinə qarşı mübarizədə məhkəmənin önəmli rolu" mövzusunda keçirilən konfransda iştirak etmək üçün Özbəkistanın Daşkənd şəhərində səfərdə olmuşdur.

**-noyabr ayının 15-də** ölkəmizdə səfərdə olan bir sıra ölkələrin vəkillik sahəsinin rəhbərləri Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

**-noyabr ayının 19-da** Ali Məhkəmənin **Facebook** və **Twitter** səhifələrinin təqdimatı keçirilmişdir.

**-noyabr ayının 26-da** ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Ali Məhkəməsinin sədri Jakip Asanovun başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**-noyabr ayının 27-də** Rusiya Federasiyası Ali Məhkəməsi Yanında Məhkəmə Departamentinin nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**-noyabr ayının 28-də** Azərbaycan Respublikası Ali Məhkəməsində "Azərbaycanda ədliyyə sisteminin təkmilləşdirilməsi və onun İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna uyğunlaşdırılması" mövzusunda konfrans keçirilmişdir.

**-dekabr ayının 18-də** Azərbaycan Hüquqşünaslar Konfederasiyasının və Türkiyə Hüquq Platformasının birgə təşkilatçılığı ilə Bakıda keçirilən II Avrasiya Hüquq Qurultayının bir qrup nümayəndəsi Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

## Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı Dunya Miyatoviç Ali Məhkəmənin sədri ilə görüşmüşdür.



2019-cu il iyulun 10-da ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı Dunya Miyatoviç Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə Ali Məhkəmənin sədri Azərbaycanın məhkəmə sistemi, Ali Məhkəmənin strukturu və fəaliyyəti barədə qonağa ətraflı məlumat vermişdir. Ali Məhkəmənin sədri İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə işgüzar əlaqələrdən, Avropa Birliyinin üzvü olan ölkələrlə məhkəmə-hüquq sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verildiyindən danışmışdır. Bildirilmişdir ki, ölkəmiz Avropa Şurasına tam hüquqlu üzv olduqdan sonra qisa müddət ərzində bir çox konvensiyalara, o cümlədən "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" konvensiyaya qoşulmuşdur. Azərbaycanın Avropaya inteqrasiya olunduğu bir zamanda bu məsələ xüsusi aktuallıq kəsb etdiyindən Ali Məhkəmədə işlərə baxılarkən Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinə istinad edilir.

Səmərəli fikir mübadiləsi şəraitində keçən görüşdə insan haqlarının təmin olunması və bu sahədə məhkəmələr qarşısında duran vəzifələrlə bağlı faydalı müzakirələr aparılmışdır.

Ali Məhkəmənin sədri Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı Dunya Miyatoviçi və nümayəndə heyətinin üzvlərini maraqlandıran suallara cavab vermişdir.

## Ali Məhkəmənin sədri Fransada səfərdə olmuşdur.



Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti 12-13 sentyabr 2019-cu ildə Parisdə keçirilən Avropa Şurasına üzv dövlətlərin Ali Məhkəmə sədrlərinin konfransında iştirak etmişdir.

Fransanın Avropa Şurası Nazirlər Komitəsində sədrliyi dövründə Kassasiya Məhkəməsi, Konstitusiya Şurası və Dövlət Şurasının birgə təşkilatçılığı ilə keçirilən konfransın əsas məqsədi məhkəmə sədrləri üçün ümumi maraq kəsb edən mövzular ətrafında fikir mübadiləsi aparılması, insan haqlarının təmin olunması, məhkəmələrin üzləşdiyi mövcud problemlərin həlli ilə bağlı təcrübələrin paylaşılması olmuşdur.

Konfransın ilk günü Fransa Respublikasının Prezidenti Emmanuel Makron Avropa Şurasına üzv dövlətlərin Ali Məhkəmə sədrlərini qəbul etmişdir. Qəbulda beynəlxalq hüququn müxtəlif istiqamətləri ilə bağlı səmərəli fikir mübadiləsi aparılmışdır.

Konfransda məhkəmədə hüquq müdafiələrinin effektiv vasitələri, milli məhkəmələr və İnsan Hüquqları üzrə Avropa Məhkəməsi arasındakı münasibətlər, şəxsi və ailə həyatına hörmət hüququ ilə ifadə azadlığının toqquşması mövzularında çıxışlar edilmişdir.

Tədbirdə Fransa Kassasiya Məhkəməsinin sədri, Konstitusiya Şurasının sədri, Dövlət Şurasının

sədr müavini, Ədliyyə naziri, Avropa İnsan Hüquqları Məhkəməsinin sədri, Avropa Şurasının Baş Katibi və digər məsul şəxslər məruzələrlə çıxış etmişlər. Məruzələr ətrafında geniş müzakirələr aparılmışdır.

Ali Məhkəmənin sədri bir sıra ölkələrin Ali Məhkəmə sədrləri və digər rəsmilərlə görüşlərində və söhbətlərində Azərbaycanda məhkəmə islahatı zamanı toplanmış müsbət təcrübəyə diqqəti cəlb etmiş, bununla bağlı söhbətlər aparmış, suallara cavab vermişdir. Maraq doğuran söhbətlər zamanı Azərbaycanın məhkəmə təcrübəsinə və aparılan islahatlara xüsusi diqqət göstərilmişdir.

Ali Məhkəmənin sədri Avropa Şurasının üzvü olan ölkələrlə məhkəmə-hüquq sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verildiyindən danışmış, bu əməkdaşlığın ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf etdiyini diqqətə çatdırmışdır.

Ali Məhkəmənin sədri Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi üzrə baş departamentinin İnsan Hüquqları məsələləri üzrə direktoru Kristof Poireli və nümayəndə heyətinin üzvlərini maraqlandıran suallara cavab vermişdir.

## Azərbaycanda ədliyyə sisteminin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna uyğunlaşdırılması məsələləri müzakirə olunub.



Noyabrın 28-də Azərbaycan Respublikası Ali Məhkəməsində "Azərbaycanda ədliyyə sisteminin təkmilləşdirilməsi və onun İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna uyğunlaşdırılması" mövzusunda konfrans keçirilib.

Ali Məhkəmənin və Konstitusiya Məhkəməsinin hakimlərinin iştirak etdikləri konfransda Avropa Şurasının Bakı ofisinin rəhbəri Zoltan Hernyes tədbirin"İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyası"nın 2-ci, 3-cü və 5-ci maddələri ilə bağlı Azərbaycana aid işlərdə çıxarılan qərarlara, Konvensiyanın milli səviyyədə tətbiqinə dair toxunulan məsələlərə həsr olunduğunu bildirib. Eyni zamanda, Azərbaycanda ədliyyə sisteminin təkmilləşdirilməsi istiqamətində Ali Məhkəmə tərəfindən həyata keçirilən tədbirlər, "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyası"nın kontekstində, xüsusilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin perspektivləri baxımından qərarların əsaslandırılması ilə bağlı məsələlərin müzakirəyə çıxarıldığı qeyd olunub.

Zoltan Hernyes ədliyyə sahəsində islahatların aparılması, məhkəmə hakimlərinin bacarıqlarının artırılmasına dair Avropa Şurasının həyata keçirdiyi layihələri dəstəklədiyinə görə Ali Məhkəmənin sədrinə minnətdarlığını bildirib.

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev bildirib ki, ölkəmizdə ədliyyə sisteminin təkmilləşdirilməsi uzun illərdir dövlət fəaliyyətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib və bu sahədə intensiv işlər davam etdirilir. Buna bariz nümunə kimi, Prezident İlham Əliyevin 2019-cu il aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi

haqqında" Fərmanı göstərmək olar.

Ali Məhkəmənin sədri deyib ki, ölkəmizdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin öyrənilməsi və tətbiqi əslində məhkəmə sisteminin müasirləşdirilməsinin tərkib hissəsi kimi nəzərdən keçirilir. Bu sahədə əsaslı nailiyyətlər əldə olunub.

Bildirilib ki, milli məhkəmələr bütövlükdə insan hüquqlarının müdafiəsində səmərəli vasitə kimi çıxış etməlidir. Ali Məhkəmədə baxılan işlərdə insan hüquq və azadlıqlarının pozulub pozulmaması yoxlanılmalı, pozulmuş hüquqlar bərpa olunmalıdır. Ali Məhkəmə, həmçinin milli hüququn insan hüquq və azadlıqları haqqındakı müddəalarının milli səviyyədə tətbiqi zamanı hüquqi mövqeyin formalaşdırılması, bu müddəaların Konvensiyanın və Avropa Məhkəməsinin presedentləri əsasında şərhi və tətbiqi üçün zəmin hazırlamalıdır.

Diqqətə çatdırılıb ki, Ali Məhkəmənin Plenumunda qəbul edilmiş qərarlar, insan hüquq və azadlıqlarının səmərəli təmininə, onların məhkəmədə müdafiəsi zamanı tətbiq olunan hüquq normalarının Avropa Məhkəməsinin presedentləri kontekstində şərh olunmasına xidmət edir. Plenum bir sıra qərarlarında məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlar verərkən Konvensiyanın müddəalarına, Avropa Məhkəməsinin presedentlərinə istinad olunmasını tövsiyə edib.

Ali Məhkəmənin sədri Ramiz Rzayev vurğulayıb ki, dövlət orqanları və dövlətin vəzifəli şəxslərinin insan hüquq və azadlıqlarını pozması nəticəsində şəxsə dəymiş mənəvi ziyanın əvəzinin ödənilməsi ilə bağlı Ali Məhkəmənin Plenumunun qərarları da qanunvericilikdə olan boşluğun ədalətli satisfaksiyaya nail olmaq üçün doldurulması baxımından əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan məhkəmələrində ədalət mühakiməsini həyata keçirən hər bir hakim insan hüquq və azadlıqlarının beynəlxalq standartlara müvafiq qaydada təmin edilməsinin dövlətin əsas məqsədi olmasını dərk edir.

"Ali Məhkəmə Prezident İlham Əliyevin 2019-cu il aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanın icrası ilə bağlı bir sıra tədbirlər həyata keçirib.

Tədbirdə Ali Məhkəmənin hakimi Əsəd Mirzəliyev "Azərbaycanda ədliyyə sisteminin təkmilləşdirilməsi ilə bağlı Ali Məhkəmə tərəfindən həyata keçirilən tədbirlər", Avropa Məhkəməsinin hüquqşünası Xəqani Quliyev "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyası"nın 2-ci və 3-cü maddələri ilə bağlı Azərbaycana aid işlərdə ortaya çıxan məsələlər", Avropa Məhkəməsinin hüquqşünası Vüqar Fətəliyev "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyası"nın 5-ci maddəsi ilə bağlı Azərbaycana aid işlərdə ortaya çıxan məsələlər", İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi Lətif Hüseynov "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyası" konstekstində ölkədaxili məhkəmələr tərəfindən qərarların əsaslandırılması", Avropa Şurasının Proqram meneceri Mahir Müşteidzadə "Azərbaycana aid qərarların icra mexanizminin təkmilləşdirilməsi" mövzularında məruzələrlə çıxış ediblər.

Konfransda "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyası"nın tətbiqinə dair digər məsələlər müzakirə olunub, suallar cavablandırılıb.

## İnformasiya Texnologiyaları şöbəsinin 2019-ci ildə fəaliyyəti barədə

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il Fərmanının icrası çərçivəsində Ali Məhkəmədə elektron məhkəmə informasiya sisteminin təkmilləşdirilməsi, infrastrukturun genişlənməsi və maddi-texniki təchizatının yaxşılaşdırılması, məhkəmə icraatında müasir informasiya texnologiyalarının tətbiqinin üstünlüklərindən hərtərəfli istifadə edilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Dövlət başçısının qeyd edilən Fərmanında Azərbaycan Respublikasının Ali Məhkəməsinə ədalət mühakiməsinin keyfiyyətinin artırılması ilə bağlı məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün ciddi tədbirlərin görülməsi, eləcə də sistemli xarakter daşıyan nöqsanların aradan qaldırılması üçün müvafiq mexanizmlərin yaradılması tövsiyə edilmişdir. Bununla bağlı olaraq görülən işlər çərçivəsində Ali Məhkəmənin qərarlarının açar sözlər vasitəsilə axtarışı proqram təminatı yaradılmışdır.

Bununla yanaşı Ali Məhkəmənin ictimai həyatının sosial şəbəkələrdə işıqlandırılması, digər tərəfdən isə vətəndaşlarda hüquqi düşüncənin formalaşdırılması, eləcə də, məhkəmə hakimiyyəti ilə ictimaiyyət arasında əlaqələrin qurulması, vətəndaşların hüquq aləmində və məhkəmə sistemində baş verən yenilik və dəyişikliklərdən xəbərdar olması məqsədilə Ali Məhkəmənin Facebook və Twitter sosial şəbəkələrində səhifələrinin istifadəsinə start verilmişdir.

2019-ci ildə Ali Məhkəmədə informasiya texnologiyalarının və elektron məhkəmə informasiya sistemində tətbiqi sahəsində aşağıda göstərilən işlər həyata keçirilmişdir:

-Ali Məhkəmədə baxılan mülki, inzibati və iqtisadi işlər üzrə məhkəmə iclaslarının audio-video yazısı aparılmış, həmin yazılar maddi daşıyıcıda işlərə əlavə edilmişdir.

-Elektron məhkəmə informasiya sistemində əlavə kassasiya şikayətinin işlənməsi prosesləri əsas etibarı ilə yekunlaşmış, əlavə kassasiya şikayətlərinin qeydiyyatının aparılması başlanmış, bu sahədə işlər davam etdirilir;

-Plenum icraatının elektron məhkəmə informasiya sistemində aparılması istiqamətində işlər görülmüşdür.

-Vətəndaş məmnunluğunun daha da yüksəldilməsi və hakimlərin, məhkəmə aparatının fəaliyyət səmərəliliyininin artırırlması məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin mövcud funksionallıqları təkmilləşdirilmiş və yeni funksionallıqlar yaradılmışdır.

-Daxil olan sənədlərin qeydiyyatı prosesi yenilənmiş, sənədlərin elektron surətləri əlavə olunmaqla uyğun istifadəçiyə göndərilməsi təmin olunmuşdur.

-Məhkəmə sənədlərinin qanunvericilikdə müəyyən edilmiş müddətlərdə işlənməsinə nəzarəti həyata keçirmək məqsədi ilə EMİS-də məhkəmə sədrləri və hakimlər üçün xüsusi nəzarət pəncərəsinin yaradılması üzrə işlər davam etdirilmiş, müəyyən mexanizmlər hazırlanmış və sınaq rejimində tətbiq edilməyə başlanmışdır;

-2019-ci il üzrə məhkəmə aktları anonimləşdirilməklə Ali Məhkəmənin İnternet Səhifəsində elektron qaydada dərc edilmişdir;

-"Elektron məhkəmə "informasiya sistemi vasitəsilə yeni statistik cədvəllərin alınması və mövcud statistik cədvəllərin təkmilləşdirilməsi istiqamətində işlər görülmüşdür;

-Ali Məhkəmənin İnternet Səhifəsində mövcud olan "E-Xidmətlər" bölməsi üzrə təkmilləşmə işləri aparılmış, Ali Məhkəmədə könüllülük fəaliyyəti göstərmək istəyən gənclərin qeydiyyatı üçün sistem yaradılmışdır;

Elektron sənəd dövriyyəsi və elektron məhkəmə məsələlərinin tətbiqi və idarə edilməsi ilə Ali Məhkəmənin "İnformasiya texnologiyaları" şöbəsinin məşğul olması və bununla əlaqədar olaraq şöbənin iş yükünün artmasını, əməkdaşlarının vəzifə təlimatlarının dəyişməsini, yeni vəzifə funksiyaları yaranmasını nəzərə alaraq İnformasiya texnologiyaları şöbəsinin fəaliyyətinin təkmilləşdirilməsi və şöbənin adının funksiyaları ilə uyğunlaşdırılması məqsədilə "İnformasiya texnologiyaları" şöbəsinin adı dəyişdirilərək "Elektron məhkəmə məsələləri və İnformasiya texnologiyaları" şöbəsi adlandırılmışdır.

## Ali Məhkəmənin İnternet səhifəsi




Ali Məhkəmənin internet səhifəsi Azərbaycan Respublikası Prezidentinin yanında Xüsusi Dövlət Mühafizə Xidmətinin serverlərində, www.supremecourt.gov.az ünvanında yerləşdirilmişdir. Ali Məhkəmənin yeni internet səhifəsi üç dildə – azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdir.

Ali Məhkəmənin internet səhifəsi 5 əsas bölmədən ibarətdir. Burada Azərbaycan Respublikası haqqında məlumatlar, Ali Məhkəmənin strukturu, Qanunvericiliklə bağlı sənədlər, Məhkəmə sənədləri və qərarları, Avropa İnsan Hüquqları məhkəməsinin qərarları, Ali Məhkəmədə keçirilmiş beynəlxalq konfrans materialları, hakimlərin intizam məsuliyyətinə cəlb olunması barədə məlumat, işlərin təyinatı və baxılmış işlərin nəticələri, məhkəmə aidiyyəti, vətəndaşların, ərizə və müraciətlərin qəbulu, arayışlar və mətbuat xidməti haqqında məlumat almaq olar.

Bundan başqa, internet səhifəsində Ali Məhkəmənin rəhbərliyinin və hakimlərinin xarici dövlətlərə səfərləri, ölkədaxili tədbirlərdə iştirakı, habelə, Ali Məhkəmənin təşkil etdiyi tədbirlər haqqında məlumatlarla ətraflı tanış olmaq mümkündür.




Ali Məhkəmənin İnternet səhifəsinin “Dağlıq Qarabağ münaqişəsi” və “Qan yaddaşı” bölmələri yenidən hazırlanmışdır.

Ali Məhkəmənin İnternet səhifəsinin “E-Xidmətlər” bölməsində məhkəməyə daxil olmuş işlər barədə operativ məlumatlar, təyin olunmuş işlər barədə gündəlik və həftəlik məlumatlar dərc olunur, məhkəmə qərarlarının axtarışı üçün xüsusi interfeys təkmilləşdirilmiş, “Açar söz üzrə axtarış” bəndi yaradılmış, “Online müraciət” və “Vətəndaşların qəbulu” bəndləri yenilənmiş, həmçinin hər bənd üzrə




istifadəçi üçün təlimatlarda düzəlişlər edilmişdir.

2019-cı il ərzində Ali Məhkəmənin internet səhifəsinə daxil olan adamların sayı 211268, daxil olmaların sayı 337065, müraciətlərin sayı isə 744724 dəfə olmuşdur ki, bu da ötən ilə nisbətən orta hesabla 0.96, 1.24 və 1.11 dəfə dəyişmişdir (Qrafik 1).

2012-ci ildən bəri sayta müraciətlərin dinamikasından göründüyü kimi (Qrafik 2), 2019-cu ildə müraciətlərin sayı ötən ilə nisbətdə 10.62% artmış və 744724-ə çatmışdır.

2019-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə dünyanın 100-dən çox ölkəsindən 337065 dəfə müraciət olmuşdur ki, bunların 320897-si Azərbaycandan, 4333-ü Rusiyadan, 2138-i ABŞ-dan, 1855-i Türkiyədən, 889-u Ukraynadan, 997-si Almaniyadan, 489-u Gürcüstandan, 442-si Hindistandan, 364-ü Birləşmiş Krallıqlardan, 343-ü Qazaxstandan, və 4338-i isə digər ölkələrdən olmuşdur.

Qrafiklərdə müraciətlərin təkrarlanma və davamlılığa görə paylanması nümayiş edilir. Üçüncü qrafikdən göründüyü kimi bütün müraciətlərin 51.03%-i bir, 12.25%-i iki, 5.75%-i üç, 3.62%-i dörd, 2.59%-i beş və 24.75%-i altı dəfə və daha çox təkrar olmuşdur.

Dördüncü qrafikdə müraciətlərin davamlılığı nümayiş etdirilir. Buradan göründüyü kimi bütün müraciətlərin 76.22%-i 0-30 saniyə, 3.48%-i 31-60 saniyə, 6.56%-i 1-3 dəqiqə, 7.25%-i 3-10 dəqiqə, 5.53%-i 10-30 dəqiqə, 0.97%-i isə 30 dəqiqədən artıq davam etmişdir.



# Ali Məhkəmənin bülleteni

Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi nəşri olan bülleten 2003-cü ilin yanvar ayından nəşr olunur.

İldə dörd dəfə nəşr olunan bülletendə məhkəmə fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Ali Məhkəmə Plenumunun qərarları, Ali Məhkəmənin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlar, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair Ali Məhkəmədə aparılan ümumiləşdirmənin nəticələri, icmal məktubları, Ali Məhkəmənin beynəlxalq əlaqələri, Ali Məhkəmə sədrinin görüşləri, məhkəmə təcrübəsi üçün əhəmiyyət kəsb edən məhkəmə qərarları və məhkəmə fəaliyyəti ilə bağlı digər maraqlı materiallar, onun Xüsusi Buraxılışında isə müstəsna əhəmiyyətə malik olan məlumat və sənədlər dərc olunur.

2019-cu ildə Ali Məhkəmənin dörd bülleteni çap olunmuşdur. 2019-cu ildə buraxılmış bülletenlərdə Respublikanın əməkdar hüquqşünası Müzəffər Ağazadənin "Yarımçıq dekriminallaşdırma", "Cinayət Məcəlləsinin 264-cü maddəsi ilə bağlı mübahisəli məsələlər", "İttiham hökmlərinin tərtibinin bəzi texniki məsələləri barədə", Respublikanın əməkdar hüquqşünası Əsəd Mirzəliyevin "Məhkəmə təcrübəsinin vahidliyi hüquqların ədalətli təminatıdır", Şirvan Apelyasiya Məhkəməsinin hakimi İlham Əsədovun "Mülki prosessual qanunvericilikdə məhkəmə xərcləri və onun tətbiqi", Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin hakimi Vəli Abdullayevin "Mülki Məcəllənin əqdlərinin etibarsızlığından bəhs edən müddəaları barədə bəzi mülahizələr", Ali Məhkəmənin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kəmalə Əliyevanın "İnsan hüquq və azadlıqlarının məhdudlaşdırılması məsələsi terrorçuluğa qarşı mübarizə kontekstində" məqalələri, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin "Azərbaycan məhkəmə sisteminin inkşafının yol xəritəsi" ilə bağlı "Xalq Qəzeti"nə verdiyi müsahibəsi, beynəlxalq əlaqələrə və görüşlərə həsr olunmuş məlumatlar və aktuallıq kəsb edən digər tədbirlər öz əksini tapmışdır.

## Ali  Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi və onun maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

Ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun həyata keçirilməsi üçün ölkə Prezidenti tərəfindən məhkəmələrə hər cür şərait yaradılmış və bu proses indi də davam etdirilir.

Məhz bunun nəticəsidir ki, dövlət büdcəsinin xərclər hissəsində məhkəmə hakimiyyətinin, o cümlədən, Azərbaycan Respublikası Ali Məhkəməsinin  saxlanılması xərclərinin həcmi ilbəil artırılır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ali Məhkəməsi hakimlərinin  sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 19 oktyabr 2010-cu il tarixli sərəncamı bu sahəyə diqqətin əyani nəticəsidir.

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi üçün  2019-cu ildə ayrılan illik büdcə vəsaiti (dürüstləşmə ilə) **12.226.664** manat, o cümlədən, əmək haqqı fondu **8.848.119** manat müəyyən edildiyi halda,  2020-ci ildə Ali Məhkəməyə ayrılan büdcə vəsaiti **14.197.505** manat müəyyən edilmişdir ki, bu da 2019-cu ildə ayrılan büdcə vəsaitindən  **1.970.841**   manat çoxdur.

## Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası

Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə birbaşa əlaqəsinin təmin edilməsi, lazım gəldikdə Ali Məhkəmədə baxılmış mülki və cinayət işləri haqqında onlara operativ qaydada məlumat vermək Ali Məhkəmənin hakimləri Mirzəliyev Əsəd Abdulla oğluna və Kərimov Fərhad Abdulkərim oğluna həvalə olunmuşdur.

Mülki işlərlə əlaqədar məlumat almaq üçün hakim Əsəd Mirzəliyevlə **493-09-91** nömrəli, cinayət işləri ilə əlaqədar isə hakim Fərhad Kərimovla **493-22-03** nömrəli telefonlarla birbaşa əlaqə saxlamaq olar.

Bundan əlavə, həmin hakimlərlə Ali Məhkəmənin ***contact@supremecourt.gov.az*** e-mail ünvanı vasitəsilə də əlaqə saxlamaq olar.

Ali Məhkəmədə keçirilən tədbirlər haqqında müvafiq məlumatları **493-18-37** nömrəli telefonla Ali Məhkəmənin  mətbuat katibi Məmmədli Allahverdi Məhərrəm oğlundan almaq olar.